www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 oktyabr 2016-cı il Çərşənbə axşamı № 236 (6557) Qiymıəti 60 qəpik

Xəbər

## Bakıda ər arvadını döyüb öldürdü

yazısı səh.2-də

Gündəm

### İlin sonuna doğru bizi nə gözləyir?



Dekabrın sonlarında qiymətlərdə daha ciddi artımlar müşahidə oluna, neft də bahalaşa bilər...

yazısı səh.12-də

### Bankların birləşməsi niyə mümkün olmur?

yazısı səh.6-da

### Azərbaycan türkmən məsələsində niyə susur - iqtidar deputatları danışdılar

yazısı səh.9-da

### Həmsədrlərin fəaliyyəti Qarabağ münaqişəsini həll... etməməyə yönəlib

yazısı səh.11-də

### Məhkəmə "8-ci kilometr bazarı"nın üzərinə həbs qoydu - ticarətçilər bazardan çıxarılacaqmı...

yazısı səh.12-də

### Müsavatın Avropadakı koordinasiya mərkəzi nə iş görəcək?

yazısı səh.4-də

### Deputat Akif Çovdarova 1 milyon verməsindən danışmaq istəmir

yazısı səh.2-də

### Bakıda qəssabxana problemi; işgəncə ilə kəsilən heyvanların əti sağlamlığa zərər vurur

yazısı səh.13-də

### İxtisarlar sosial gərginlik yarada bilər

yazısı səh.4-də

### Hava soyudu - soyuq suda çimənlərin mövsümü də başladı

yazısı səh.13-də

### 33 yaşlı kişi Bakıda hoteldə damarlarını kəsdi

yazısı səh.14-də

Xaləddin İsgəndərov Binəqədidə yaranmış bataqlığın badına gedə bilər

# "ODDA YANMAZ" İCRA BAŞÇISI SUDA "BATIR"

Vergilər naziri yaxın qohumu olan başçını bu dəfə xilas edə biləcəkmi? İsgəndərovun Prezident Administrasiyasında sərt danlandığı, ona sonuncu dəfə şans verildiyi deyilir; "Təmiz Binəqədi" layihəsinin korrupsiya yemi olduğu bir daha üzə çıxır...




yazısı səh.5-də

# İşğalçının təhlükəli strategiyası - düşmən müharibəni seçir...

Ermənistandan təxribatçı gediş: sülh ideyası sabotaj edilir; rəsmi Bakının Qarabağla bağlı son xoşməramlı jestləri və Ankara-Moskva yaxınlaşması İrəvanı yanlış seçimə tuş edib

yazısı səh.8-də



*Sərdar Cəlaloğlu:*

### "Ölənə qədər elmlə məşğul olacağam"

yazısı səh.10-da



*Natiq Cəfərli:*

### "Hökumətin QHT sektoruna bir güvənsizliyi var"

yazısı səh.7-də



*İlham Şaban:*

### "Əgər hökumət uzaqgörənlik etmirsə, alternativ enerji sahəsi inkişaf edə bilməz"

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016



## Prokuror "Qızıl Məryəm"in qızına 19 il cəza istədi

**«Qızıl Məryəm" ləqəbli anasını öldürməkdə təqsirləndirilən Günel Hüseynova və onunla birlikdə həbs edilən xalası oğlu və dostunun cinayət işi üzrə növbəti məhkəmə prosesi davam edirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eynulla Vəliyevin sədrliyi ilə qapalı keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib və təqdirləndirilən şəxslərə cəza istəyib.

Dövlət ittihamçısı Günel Hüseynovaya 19 il, Ceyhun Əsgərova 20 il, Nicat Eyvazova isə 10 il cəza istəyib.

Məhkəmə prosesi oktyabrın 28-də davam edəcək.

❑ İ.MURADOV

## Bakıda ər arvadını döyərək öldürüb

**Bakıda ər arvadını döyərək ona ağır xəsarətlər yetirib. "Report"un xəbərinə görə, hadisə Xətai rayonu Yusif Səfərov küçəsi ev 15/5 ünvanında qeydə alınıb. Belə ki,1979-cu il təvəllüdlü Dilarə Hüseynova ağır xəsarətlərlə 3 saylı Şəhər Kliniki Xəstəxanasına aparılıb. Qadın aldığı zərbələrdən xəstəxanada ölüb.**

Məlum olub ki, D.Hüseynovanı əri 1974-cü il təvəllüdlü Namiq Əkbərzadə ailə-məişət zəminində döyüb. Faktla bağlı Xətai Rayon Prokurorluğunda cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

## Türkiyədə 72 terrorçu öldürüldü

**Türkiyənin Hakkari vilayətində pilotsuz uçan aparatlar (PUA) vasitəsilə indiyə qədər 72 PKK terrorçusu öldürülüb. Axar.az xəbər verir ki, bu barədə müdafiə naziri Fikri Işıq məlumat verib.**

Onun sözlərinə görə, son iki ayda əməliyyatlarda PUA-lardan intensiv istifadə edilib.

Xatırladaq ki, Türkiyə ordusu Şimali İraqda keçirilən hərbi əməliyyatlarda da dronlardan istifadə edir.



## Dollar bahalaşmaqda davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) oktyabrın 25-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi oktyabrın 24-ü ilə müqayisədə 0,37% artaraq 1,6211 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, oktyabrın 24-də dolların məzənnəsi 1,6151 manat olub.**

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Deputat Akif Çovdarova 1 milyon verməsindən danışmaq istəmir

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun daha bir qurbanı haqda xəbər yayılıb. Bugünlərdə baş prokuror Zakir Qaralov "MTN işi" ilə bağlı Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsində istintaqın davam etdiyini və MTN-in əməkdaşlarının məsuliyyətinin müəyyən olunduğunu deyib.**


Ağalar Vəliyev


Akif Çovdarov

"MTN işi" ilə bağlı prosesə diqqət edəndə Eldar Mahmudovun və dəstəsinin iş adamları, məmurlarla yanaşı hətta Milli Məclis üzvlərini belə şantaj edərək, onların pulunu almaları faktı üzə çıxmaqdadır.

Gununsesi.info yazır ki, belə deputatlardan biri də iş adamı kimi tanınan Ağalar Vəliyev olub. "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri vəzifəsini tutan, həmçinin Bakının bir çox məkanlarındakı "Kristal Abşeron" adlandırılan yaşayış binalarını inşa etdirən Ağalar Vəliyev MTN-in "toruna" 2013-cü ildə düşüb. Saytımızı bilgiləndirən mənbənin sözlərinə görə, Ağalar Vəliyev MTN tərəfindən özünün səs yazısı ilə "vurulub". Belə ki, yaxın ətrafı ilə bir məclisdə hökumətin sahibkarlara olan münasibətindən gileylənən iş adamının səsi yazılıb. Həmin səs yazısında Ağalar Vəliyev sətiraltı ifadələrlə bir sıra tənqidlər səsləndirib. Onu MTN-ə dəvət edərək, həmin səs yazısını qarşısına qoyublar və "müxalifətçi" ittihamı irəli sürülüb. Bu fakt qarşısında təslim olan deputatın 1 milyon pulu əlindən alınıb. Bundan başqa, "Kristal Abşeron" yaşayış binalarının aşağı mərtəbəsində bir neçə obyekt yeri və mənzil də MTN rəhbərliyinə "hədiyyə" edilib. Araşdırmamız zamanı Ağalar Vəliyevin MTN-dən zərərçəkən statusu ilə bağlı prokurorluğa şikayət etmədiyi də bəlli olub. Görünür, Ağalar Vəliyev özünün "siyasi səhvi" səbəbindən "ilişdiyindən" bu məsələnin arxasınca getməkdən imtina edib.

"Yeni Müsavat"ın əməkdaşı Ağalar Vəliyevin telefonuna zəng edərək ondan yazılanlara münasibət öyrənməyə çalışıb. Deputat israrlı zənglərimizi cavabsız qoyub. Sonradan isə bu mövzuda danışmaq istəmədiyini redaksiyamıza çatdırıb. Bununla belə, deputatın mövqeyini dərc etməyə hazırıq.

❑ E.HÜSEYNOV



## NİDA üzvünün məhkəməsi başlayır

**Narkotikdə təqsirləndirilən NİDA Vətəndaş Hərəkatının üzvü Bayram Məmmədovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclasının başlayacağı tarix müəyyənləşib.**

Bu barədə "Report"a vəkil Elçin Sadıqov məlumat verib.

Onun sözlərinə görə, Bakı Ağır Cinayətlər Məhkəməsində keçiriləcək iclas noyabrın 1-nə təyin edilib.

İşə hakim Mahmud Ağalarovun sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, NİDA Vətəndaş Hərəkatının üzvü B.Məmmədov Cinayət Məcəlləsinin 234.4.1-ci (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 234.4.3-cü (külli miqdarda törədildikdə) maddələri ilə ittiham olunur. Rəsmi məlumata görə, onun üzərindən və evindən ümumilikdə iki kq-dan artıq heroin götürülüb.

Xətai Rayon Məhkəməsində onun barəsində dörd ay müddətinə həbs-qətimkan tədbiri seçilib.



## Siyəzəndə ağır qəza: ana öldü, qızı yaralandı

**Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunda avtomobil qəzası baş verib. Criminal.az saytı ARB Şimal-a istinadla xəbər verir ki, qəza nəticəsində 51 yaşlı qadın həyatını itirib. Hadisə yolun 115-ci kilometrliyində Siyəzən rayonu ərazisindən keçən hissəsində qeydə alınıb. 36 yaşlı Bakı şəhər sakini Araz Ağarzayevin idarə etdiyi 10 KM 964 dövlət nömrə nişanlı "Kia Avella" markalı avtomobil idarəetməni itirərək yolun kənarında maneəyə çırpılıb.**

Qəza zamanı avtomobildə Quba rayon sakinləri 51 yaşlı Sevil Ağayeva və onun qızı 17 yaşlı Fatimə də olub. Nəticədə Sevil Ağayeva hadisə yerindəcə dünyasını dəyişib. 17 yaşlı Fatimə və avtomobilin sürücüsü isə müxtəlif bədən xəsarətləri alıblar.

Yaralılar təcili yardım maşını ilə xəstəxanaya çatdırılıblar. Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat bölməsində araşdırmalara başlanılıb.

## Şəmkirdə dəm qazı daha bir can aldı

**Şəmkirdə gəlin və qayınana dəm qazından zəhərlənib. ARB TV xəbər verir ki, bədbəxt hadisə rayonun Kür qəsəbəsində baş verib. Nizami küçəsində yaşayan 53 yaşlı Gülnarə Bayramovanın halı vanna otağında pisləşib. Gəlini 18 yaşlı Rəvanə Novruzəliyeva ona yardım etmək istəyib. Bu zaman o da dəm qazından zəhərlənib.**

Gülnarə Bayramova vanna otağında dünyasını dəyişib. Rəvanə Novruzəliyeva isə Şəmkir Rayon Mərkəzi Xəstəxanasının reanimasiya şöbəsinə aparılıb. Ona lazımi tibbi yardım göstərilib.

## Azərbaycanda Milli Antidopinq Agentliyi yaradılır

**Azərbaycan Milli Məclisinin Gənclər və idman komitəsinin oktyabrın 24-də keçirilən iclasında "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, yeni qanun layihəsi barədə komitə sədri Fuad Muradov məlumat verib.

O bildirib ki, bu gün bütün dünyada dopinqə qarşı tədbirlər sərtləşdirilir. Azərbaycanda dopinqlə mübarizə haqqında ayrıca qanun layihəsinin olmadığını deyən komitə sədri "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" yeni qanun layihəsinin hazırlanması zərurətinin yarandığını, adıçəkilən yeni layihənin artıq I oxunuş üçün hazır olduğunu söyləyib.

Ötən müddət ərzində komitənin dopinq problemini araşdırdığını bildirən F. Muradov qeyd edib ki, müvafiq dövlət qurumlarının mütəxəssisləri cəlb edilməklə, hazırlanan "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" yeni qanun layihəsi 8 fəsil, 42 maddədən ibarətdir. F. Muradov əlavə edib ki, qanun layihəsində dopinq nəzarətinin həyata keçirilməsi qaydaları, bu zaman aşkarlanmış pozuntular, idmançılara tibbi xidmətin göstərilməsi qaydaları və digər məsələlər öz əksini tapıb.

Komitə sədrinin sözlərinə görə, qanun layihəsinə əsasən, Milli Antidopinq Agentliyinin (NADA) təsis edilməsi nəzərdə tutulur. Eyni zamanda, bu agentlik nəzdində Apelyasiya Komissiyasının, İdman Arbitrajının yaradılması təklif edilir. F. Muradov hesab edir ki, bu, problemli hallarda idmançılara öz hüquqlarını qorumağa yardım edə bilər.

**Gənclər və idman naziri Azad Rəhimov isə bildirib ki, hazırda nazirliyin tərkibində Antidopinq Komissiyası fəaliyyət göstərsə də, beynəlxalq antidopinq təşkilatları tərəfindən tanınmır:** "Ancaq yaranacaq yeni qurum beynəlxalq idman təşkilatları və antidopinq qurumları tərəfindən tanınacaq və onlarla bu sahədə sıx əməkdaşlıq ediləcək".

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə bu məsələnin tezliklə praktiki tətbiq olunması üçün layihədən irəli gələcək sanksiyaların Cinayət və İnzibati Xətalar məcəllələrində təsbit olunmasının vacibliyindən danışıb. Deputatlar Şahin İsmayılov, Adil Əliyev və digərləri çıxış edərək ikinci oxunuşla bağlı təkliflərini səsləndiriblər. Ş. İsmayılov bildirib ki, qanun layihəsinin qəbul olunması idmandakı bir sıra siyasi və ictimai narahatlığa son qoyacaq. Layihə birinci oxunuşda plenar iclasa təqdim olunub.

**Azərbaycana rəsmi səfərə gələn Xorvatiya Respublikasının prezidenti, xanım Kolinda Qrabar-Kitaroviçin rəsmi qarşılanma mərasimi keçirilib. Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Kolinda Qrabar-Kitaroviçə, Xorvatiya nümayəndə heyətinin üzvləri isə prezident İlham Əliyevə təqdim edilib. Dövlət başçıları rəsmi foto çəkdiriblər.**

# "Azərbaycan və Avropa İttifaqının əməkdaşlığının gələcək formatı üzərində işləyirik"

## Prezident İlham Əliyev Xorvatiya prezidenti ilə görüşdən sonra mühüm bəyanatlar verdi



"İlin əvvəlində Londonda Suriya ilə bağlı keçirilən konfrans zamanı bizim ikitərəfli məsələləri müzakirə etmək imkanımız oldu. Bu gün biz qarşılıqlı maraq kəsb edən ikitərəfli, regional, təhlükəsizlik məsələlərini, əməkdaşlıq, ticarətlə bağlı məsələlərlə əlaqədar geniş müzakirələr apardıq. Düşünürəm ki, bizim aramızda əməkdaşlığı inkişaf etdirməklə bağlı çox yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur".

**APA-nın məlumatına görə, bu sözləri Azərbaycan prezidenti İlham Əliyevin Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviç ilə keçirilən geniş tərkibli görüşdən sonra mətbuat üçün bəyanatında deyib. O bildirib ki, əməkdaşlıq üçün möhkəm hüquqi baza var:** "Üç il əvvəl mənim Xorvatiyaya rəsmi səfərim zamanı biz Strateji tərəfdaşlıq və dostluq haqqında Bəyannamə imzaladıq. Bu, əsas sənəddir, sənədin adı onun nə qədər əhəmiyyətli olduğunu göstərir. Beləliklə, biz strateji tərəfdaşlar və dostlarıq. Xorvatiya bizim üçün uzun illərdir ki, əməkdaşlıq etdiyimiz dost ölkələrdən biridir. Strateji tərəfdaşlıq və dostluq haqqında Bəyannamə əməkdaşlığımızın bütün sahələrini əhatə edir. Bizim çox yaxşı siyasi əlaqələrimiz var və sizin bugünkü səfəriniz bizim beynəlxalq təşkilatlar, BMT, ATƏT, Avropa Şurası çərçivəsində fəal əməkdaşlıq etdiyimizi göstərir".

**Prezident İlham Əliyev Xorvatiya prezidenti ilə Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığını geniş müzakirə etdiklərini söyləyib:** "Mən Avropa İttifaqı və Azərbaycan arasında yaxınlaşmanı dəstəklədiyinə görə Xorvatiyaya minnətdarlığımı bildirirəm. Hazırda biz Azərbaycan və Avropa İttifaqının əməkdaşlığının gələcək formatı üzərində işləyirik. Biz artıq Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri imzalamışıq. Düşünürəm ki, bu potensial Avropa İttifaqı - Azərbaycan razılaşması üçün yaxşı əsasdır".

"Xorvatiya prezidenti ilə regional təhlükəsizlik məsələlərini müzakirə etdik" - deyə, prezident İlham Əliyev bəyanatında qeyd edib. O bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri arasında danışıqların hazırkı vəziyyəti barədə Xorvatiya prezidentinə məlumat verib.

**Prezident xatırladıb ki, Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi təşkilatlar da oxşar sənədlər qəbul edib:** "Lakin təəssüf ki, münaqişə həll olunmur. Çünki Ermənistan sülh istəmir, status-kvonu dəyişməz olaraq saxlamaq istəyir. Ermənistan ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkələrin - ABŞ, Rusiya və Fransa prezidentlərinin status-kvonun qəbuledilməz olması ilə bağlı bir neçə dəfə açıq şəkildə verdikləri bəyanata qulaq asmaq istəmir. Bu, status-kvonu dəyişməz olaraq saxlamaq istəyən və təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq davranış normalarına deyil, həm də dünyanın 3 aparıcı ölkəsinin liderlərinin bəyanatlarına məhəl qoymayan Ermənistan rəhbərliyinə birbaşa mesajdır. Bu, qəbuledilməzdir. Beynəlxalq ictimaiyyət Ermənistanı beynəlxalq hüquqa riayət etməyə və onlara məxsus olmayan, bizə məxsus olan əraziləri heç bir şərt irəli sürülmədən azad etməyə məcbur etmək üçün ciddi tədbirlər görməlidir. Münaqişənin həlli Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünə əsaslanmalıdır. Dünyada heç bir ölkə, o cümlədən Ermənistan Dağlıq Qarabağın bu oyuncaq rejimini tanımır".

**Dövlət başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü hər hansı bir ölkənin ərazi bütövlüyü ilə eyni əhəmiyyətə malikdir:** "Xorvatiya bir və ya bir neçə enerji mənbəyindən asılılığa son qoymaq istəyir. Bu, həm neftə, həm də təbii qaza şamil olunur". **K.Qrabar-Kitaroviç qeyd edib ki, Xorvatiyanın Azərbaycanda iş görmək marağında olan çoxlu inşaat şirkəti var:** "Həmçinin qatarlardan tutmuş gəmiqayırmayadək nəqliyyat vasitələri istehsal edən şirkətlərimiz də var. Müxtəlif təyinatlar üzrə sifariş verən müştərilərin ehtiyaclarına görə layihələrini uyğunlaşdıran, gəmiqayırmanın keyfiyyəti və səmərəliliyi baxımından qlobal bazarda ən sərişli şirkətlərdən biri olan "Uyanik" ilə sizin iş təcrübəniz var. Lakin əlbəttə ki, təkcə böyük bərələr və yükdaşıyan gəmilər deyil, başqa gəmilər də var. Xəzər dənizində sərhəd mühafizəsini, sülhü və təhlükəsizliyi təmin etmək üçün önəmli olan səyyar gəmilərin hazırlanması imkanları da var".

# Kənd təsərrüfatının inkişafına aparan yollar...

## "Aqrar sahə bürokratik əngəl və korrupsiyanın caynağından qurtarmalıdır; "ASAN xidmət" bunun üçün ən yaxşı nümunədir"

**Ölkədə aqrar sektorun inkişaf planları müzakirə edilməkdədir. Ekspertlər musavat.com-a məsələ ilə bağlı fikirlərini, proqnozlarını açıqlayıblar. Ekspert Elşad Məmmədov bildirib ki, əslində Azərbaycanın "neft bumu" kimi xarakterizə edilən dövrlərdə sıçrayış məzmunlu inkişaf mərhələlərini çıxmaq şərti ilə aqrar ölkə statusuna malik dövlət kimi tanınması məntiqlidir: "Sovet İttifaqının dağılmasından sonra keçmiş müttəfiq respublikalar arasında təsərrüfat-iqtisadi əlaqələrin kəsilməsi bu layihələrin uzunömürlü olmamasına və iqtisadiyyatda ciddi struktur disbalansın formalaşmasına səbəb olub".**



Ekspertin sözlərinə görə, bu proses müəyyən dərəcədə kənd təsərrüfatı sistemində də baş verib: "Lakin kənd təsərrüfatının spesifikasını, dünya iqtisadiyyatında, o cümlədən yüksək texnoloji sənaye sektorundakı dinamikanı, ölkənin iqlim şəraitini, coğrafi vəziyyətini və bir sıra digər amili nəzərə aldıqda, ölkədə aqrar sahənin inkişaf etdirilməsi daha effektiv və real görünür. Bununla belə, bir məqama xüsusilə nəzər salmaq lazımdır ki, kənd təsərrüfatının inkişafı dedikdə bu sahəni ölkə iqtisadiyyatında neft sektorunun alternativi kimi təqdim etmək olmaz. Nə formalaşan əlavə dəyərin, nə ixrac potensialının həcminə görə bu sahələr müqayisə edilə bilməz... Məlumdur ki, milli iqtisadiyyatın idxaldan asılılığının azaldılması, ölkənin daxili bazarının müsbət dinamika ilə inkişaf etdirilməsi kimi məsələlər kənd təsərrüfatının dayanıqlı inkişafı olmadan reallaşdırıla bilməz. Eyni zamanda neft sektorunun göstəriciləri ilə müqayisəedilməz səviyyədə olsa da, kənd təsərrüfatı sektoru ölkə üçün müəyyən dərəcədə perspektivli ixrac resursları mənbəyi kimi qəbul edilməlidir".

**İsveçrədə yaşayan və bu sahədə bilgili olan soydaşımız Hacı Hacılı isə musavat.com-a bildirib ki, neft sektoru istisna olmaqla, ölkədə aqrar sektor, onun potensialı ilə müqayisə oluna biləcək digər sahə yoxdur:** "Bununla bağlı internetdə verdiyim axtarış nəticələri ürəkaçan deyil. Rəqəmlərin doğruluğu və bitkinliyi şübhə doğurur. Biz ümumiyyətlə heç vaxt sənaye, maliyyə, yaxud yüksək texnologiyalar ölkəsi olmamışıq. Hələlik belə bir imkanımız da yoxdur. O üzdən tam əminliklə demək olar ki, Azərbaycan bitkin olmayan aqrar ölkədir. Aqrar inkişaf potensialına gəldikdə isə ölkəmizin bu sahədəki imkanları kifayət qədər yüksəkdir. Bunu şərtləndirən əsas amilləri aşağıdakı kimi sıralaya bilərik: torpaq-iqlim şəraiti, ölkəmizin coğrafi mövqeyi, maliyyə imkanlarımız, pis də olsa, mövcud infrastruktur və mövcud əmək vərdişləri. Bu beş amil ölkədə kənd təsərrüfatının davamlı inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır. Mənfi amillər də var. Qərarlaşmamış və qeyri-müəyyən təsərrüfatçılıq formaları, iqlim, sosial-iqtisadi və təbii təlatümlərin nəticələrini yumşaldan sığorta sistemi bu amillər sırasındadır. Həmçinin, yeni təsərrüfatçılıq üsulları, yeni inzibati idarəetmə sistemi tələblərinə cavab verən müvafiq bilik və vərdişlərin olmaması, aqrar və aqrar-sənaye sahələri arasında kooperasiyanın yoxluğu, ya yerli-dibli mövcud olmayan, ya da iflasa uğramış subsidiya siyasəti, daxili bazar bazasının zəifliyi, rəqabətə davamlı mal istehsalı və xarici bazara çıxış imkanlarının zəifliyi, korrupsiya və büdcə oğurluğu da əsas faktorlardır. Göründüyü kimi, mənfi amillər say etibarı ilə o birini üstələyir. Sonuncu amillərin içərisində ən mühümü daxili bazarın qorunması və sırf aqrar və aqrar-sənaye sahələrinin vəhdəti, daha dəqiq ifadə etsək, "məhsul istehsalı- emal- istehsal" zəncirinin yaradılmasından ibarətdir. Deyəsən, vaxtilə bunu sonralar həbs olunmuş keçmiş iqtisadi inkişaf naziri də deyirdi".

**Kənd təsərrüfatında risklərin azaldılması üçün edilməli olan addımlara gəldikdə isə, H.Hacılı bildirib ki, hipotetik baxımdan kənd təsərrüfatının istehsal və emal bazasının yaradılması və möhkəmləndirilməsi, kənd təsərrüfatına kəndli-torpaq münasibətləri kimi deyil, texnoloji sahə kimi baxılması vacibdir. O cümlədən aqrar - sənaye sahəsində vəhdətin yaradılması, lokal, regional və hətta, subregional miqyaslarda kütləvi kənd məhsulları istehsalının təşkili, bu istehsalçılar və iri bazarlar, super və hipermarketlər arasında davamlı əlaqələrin qurulması lazımdır:** "Əməli baxımdan isə, aidiyyəti şəxslər ilk növbədə kənd təsərrüfatı istehsalçıları ehtimal olunan, kifayət qədər real görünən təbiət hadisələri, sosial və iqtisadi silkələnmələrdən qorunmaq amortizasiya vasitələri fikirləşib tapmalıdır. Fikrimcə, bu istiqamətdə ən ciddi rıçaqlardan biri kənd təsərrüfatı məhsulları istehsalçılarının təbii- iqlim hadisələri, maliyyə və iqtisadi çöküntülərdən sığorta olunması, məhsulun reallaşdırılmasındakı baryerlərin aradan qaldırılması sahəsində qanunvericilik bazasının möhkəmləndirilməsi və bu sahədə əməli addımların atılmasından ibarətdir".

**H.Hacılının sözlərinə görə, dünyanın qabaqcıl ölkələri, həmçinin aparıcı aqrar ölkələrində kənd təsərrüfatı üçün subsidiya və ya güzəştli kredit siyasəti həyata keçirilir:** "Bu, bizdə belə bir sxem üzrə aparıla bilər: maliyyə institutlarının hər birinin ekspert qurumları olmalı, bu qurumlar kənd təsərrüfatı istehsalçıları ilə sıx kontakt qurmalı, onların maliyyə sənədləşdirmələrinə kömək etməli, lazım gələrsə, maliyyə planlaşdırması və kreditlərə hazırlıq işlərini görməli və son nəticədə maliyyə qurumlarına maliyyənin verilməsini təklif etməli, maliyyə institutları öz tərəfindən bu təkliflərə yaxın getməli, maliyyə müqaviləsi hazırlamalı, bunu sığorta orqanları ilə razılaşdırmalı, maliyyənin sadələşdirilmiş qaydada verilməsinə başlamalıdır".

**Onun sözlərinə görə, aqrar sektorda kooperasiyanın təşkili, sahələr üzrə istehsalçılar birlikləri, aqrar və aqrar-sənaye sahələri arasında üzvi bağlılıqların yaradılmasına nail olunmalıdır:** "Bu, uzun, ağır zəhmət və tər tələb edən məsələdir, lakin mümkünsüz deyil. İlk addım olaraq hökumət bu işi birbaşa nəzarətə ala və öz ekspertləri vasitəsilə aqrar-sənaye birliklərinin yaradılmasina nail ola bilər. Daxili bazarın qorunması və xarici bazara çıxışın sadələşdirilməsi məsələsinə gəldikdə isə burada ikicə addımın atılması kifayət edir: yerli məhsulların reallaşdırılması üçün xüsusi kvotalar və məhsulun xarici bazara daşınması üçün gömrük rejiminin sadələşdirilməsi. Aqrar sahə bürokratik əngəl və korrupsiyanın caynağından qurtarmalıdır. Bunun üçün ən yaxşı nümunə "ASAN xidmət" nümunəsidir. Ad, onun funksiya və fəaliyyət şərtləri nisbidir, yetər ki, siyasi iradə göstərilsin. Nəhayət, monopoliya, kənd təsərrüfatı ilə məşğul olan monopolistlərin xırda və orta istehsalçıları boğmasının qarşısı alınmalıdır. Hökumətin bu sahədə də manevr imkanları var. Nə vaxtsa, Azərbaycanda antiinhisar haqqında qanun da qəbul olunmuşdu. Nəhayət, bütün bunlara əlavə kimi deyə bilərəm ki, bazarın müəyyənləşməsi və bu istiqamətdə ciddi addımların atılması vacibdir. Rusiya, Ukrayna kimi ölkələrə hesabat xəritəsində xüsusi yer vermək şərti ilə bu, olmalıdır. Kimin ağlına gələ bilərdi ki, Efiopiya kimi tamamilə darmadağın bir aqrar sahəyə malik olan bir ölkə nə vaxtsa Avropa bazarlarının yarısını qizilgül məhsulu ilə dolduracaq? Bəyəm vaxtilə Rusiya bazarlarını gül məhsulları ilə təmin edən Şəmkir, Bakı kəndləri deyildi?".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016



# Müsavatın Avropadakı koordinasiya mərkəzi nə iş görəcək?

## İlham Həsən: "Soydaşlarımızı bir araya gətirib ciddi bir diaspora təşkilatı qurmaq da AKM-in məqsədlərindən biridir"

**Almaniyanın Frankfurt şəhərində Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (AKM) təsis konfransı keçirilib. Konfransda İlham Həsən AKM-in sədri seçilib. 3 nəfər MNTK üzvü, 11 nəfər Məclis üzvü seçilib.**

Konfransda Müsavat başqanı Arif Hacılı, partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı, başqan müavini Yadigar Sadıqov və Məclis üzvü Nazim Azadoğlu da iştirak ediblər.

Konfrans "Kanal13"ün facebook səhifəsindən canlı olaraq yayımlanıb.

**Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin sədri İlham Həsən** bildirib ki, bir neçə ay öncə təşkilat komitəsi yaradılmışdı. Avropa ölkələrində Müsavat Partiyasının üzvlərinin koordinasiya mərkəzləri fəaliyyət göstərir. Qərara gəlinib ki, koordinasiya mərkəzlərini birləşdirərək Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzi qurulsun: "Konfransda Müsavat Partiyasının demokratik ənənələrinə uyğun olaraq tam demokratik şəkildə seçkilər keçirildi. Müsavat başqanı Arif Hacılının geniş çıxışı oldu. Konfransa İsveç, İsveçrə, Hollandiya, Belçika və digər Avropa ölkələrində yaşayan, həmçinin Almaniyada yaşayan müsavatçılar qatılmışdı. Eyni zamanda Almaniyada fəaliyyət göstərən türk təşkilatları, Atatürk Düşüncə Dərnəyinin təmsilçiləri qonaq qismində iştirak etdilər. Təsis konfransı çox möhtəşəm, böyük ruh yüksəkliyi ilə keçirildi. Azərbaycan siyasi həyatına bir çox demokratik yeniliklər gətirən Müsavat Partiyasının Avropadakı üzvləri də Müsavatın demokratik prinsiplərinə sadiq qalaraq gizli səsvermə ilə strukturun rəhbərliyini formalaşdırmağa nail oldu. Seçkili orqanlarda xanımlar üçün nəzərdə tutulan 4/1 kvota prinsiplərinə uyğun olaraq Məclisin və MNTK-nın formalaşmasında bu bərabərlik təmin olundu".

**İ.Həsənin sözlərinə görə, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzi Müsavatın Avropada yaşayan üzvləri tərəfindən partiyanın qəbul etdiyi qərarların həyata keçirilməsi, Azərbaycanda demokratik cəmiyyətin qurulması istiqamətində fəaliyyətin səmərəliliyinin təmin edilməsi , partiya strukturları ilə əlaqələrinin dinamikliyinin artırılması, Avropa üzrə ümumi fəaliyyətin koordinasiyası, Qarabağ problemi ilə bağlı fəaliyyətin koordinasiya edilməsi məqsədilə yaradılıb:** "AKM -in tərkibi ayrı -ayrı ölkələrdə və şəhərlərdə yaşayan Müsavat Partiyası üzvləri tərəfindən seçilmiş özək ( və ya şöbə) sədrlərindən, koordinatorlardan ibarətdir.

Əsas məqsədlərimizdən biri Azərbaycanın Avropada tanıdılmasında, Qarabağ həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırmasında və Azərbaycanda demokratik, hüquqi bir dövlət quruculuğunda Müsavat Partiyasının və digər demokratik təşkilatların, siyasi partiyaların fəaliyyətlərini dəstəkləyib onların beynəlxalq təşkilatlarla, Avropanın aparıcı dövlətlərinin strukturları ilə əlaqələrinin qurulmasında Avropada yaşayan dostlarımızın imkanlarından AKM aracılığı ilə maksimum istifadə etməkdir. Eyni zamanda bu təşkilatın imkanlarından istifadə edərək Azərbaycanın inkişafi, Qarabağın azadlığı və ölkəmizdə hüquqi bir dövlətin guruculugu naminə Avropada yaşayan, Azərbaycanın milli mənafeyini dəstəkləyən bütün soydaşlarımızı bir araya gətirib ciddi bir diaspora təşkilatı qurmaq da AKM-in məqsədlərindən biridir".

❑ Etibar SEYİDAĞA

**Ölkədə son il yarımda - baş verən iki devalvasiyadan sonra bir çox iş yerlərinin də qapandığı sirr deyil. Xeyli özəl şirkət bağlanıb, bankrot olub, bir çox dövlət müəssisələrində işçilərin sayı azaldılıb. Son olaraq, "Azərsu" Açıq Səhmdar Cəmiyyətində ixtisarların olacağı barədə xəbərlər yayılıb. Qurumun tərkibində fəaliyyət göstərən idarələrin bir-birinə birləşdirilməsi işçilərin kütləvi ixtisar edilməsi məsələsini gündəmə gətirir. Bundan əvvəl isə iki mindən çox bank işçisinin işsiz qalması barədə xəbərlər gündəmə gəlmişdi. Yaranan bu işsizlər ordusu yeni sosial gərginliyin yaranmasına təkan verə bilər. Ekspertlər bununla bağlı narahatlıqlarını bölüşürlər. Həmçinin hökumətin atmalı olduğu addımlar da müzakirə mövzusudur.**

# İxtisarlar sosial gərginlik yarada bilər

## Ekspertlər işsiz qalanların sayının artacağını bildirirlər, səbəblər çoxdur…

**Milli Məclisin deputatı Vahid Əhmədov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ixtisarların davamı olacaq: "Səbəbi aydındır. Neftin qiyməti kəskin aşağı düşüb. Qeyri-neft sektorunda ciddi irəliləyiş, oradan gələn gəlir kifayət qədər qaneedici deyil. Bunun üçün dövlət büdcəsində müəyyən problemlər var. Müəyyən islahatlar, struktur islahatları mümkündür. Prezident də bir neçə dəfə qeyd edib ki, Azərbaycanda islahatlar, struktur islahatları aparılacaq. Bu, gözləniləndir. Hələ bu, davam edəcək. Mənə elə gəlir ki, bu il də ixtisarlar olacaq, 2017-ci ildə olacaq. O vaxta qədər ixtisarlar davam edəcək ki, qeyri-neft sektoru inkişaf edəcək. Qeyri-neft sektorunu lazımi dərəcədə inkişaf etdirdikdən sonra kifayət qədər insanların işləmək üçün normal şəraiti olacaq, kifayət qədər iş yerləri olacaq. Ciddi islahatlara ehtiyac var. Xüsusilə qeyri-neft sektorunda islahatlara zərurət yaranıb. Neft ixrac edən ölkələrin əksəriyyətində belə bir proses, ixtisar gedir".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a deyib ki, belə şəraitin yaranmasına əsasən dövlət və hökumət strukrurları səbəbkardır:** "Səbəb hökumətin illərdir apardığı səhv siyasətdir. Yəni lazım oldu-olmadı, böyük neft pulları dövründə ştatlar şişirdilirdi və dövlət sektorunda daha çox iş yerləri yaradılırdı. Rəsmi statistika da bunu sübut edur. Ölkədə təqribən 1,6 milyon muzdla çalışan işçi qüvvəsi var. Bunun 900 mindən çoxu məhz dövlət və hökumət müəssisələrində çalışır, büdcədən maaş alan təşkilatlarda və yaxud dövlətə aid olan təşkilatlarda çalışır. Bu da kifayət qədər böyük bir rəqəmdir.




Dayanıqlı deyil, effektiv deyil. İdarəetmədə bu qədər kadrların, statların şişirdilməsi indiki böhranlı dövrdə və büdcənin azaldılması dövründə təbii ki, böyük problemlər yaradır. Görünən odur ki, hökumət bu yöndə müəyyən addımlar atmağı düşünür. Gələn ilin büdcə xərcləmələrinin azalmasında da, dövlət strukturlarının effektivliyinin artırılmasında da müəyyən addımlar atılması gözlənilir. Bu da ixtisarlarsız mümkün deyil. Məsələn "Azərsu"da çalışanların tən yarısının bəlkə də həmin strukturun tərkibində hər hansı layihə ilə məşğul olmasına ehtiyac yox idi. Düşünürəm ki, ixtisarlar daha böyük həcmdə olacaq. Daha ciddi sahələri əhatə edəcək. Bu da təbii ki, sosial gərginliyin artmasına səbəb olacaq. Bu addımı atmamışdan əvvəl hökumət gərək cəmiyyəti, iqtisadiyyatı buna hazırlayaydı. Məsələn, həmin insanlar biznesdə özlərini sınaya bilərdi, buna şərait yaradıla bilərdi. Amma görünən odur ki, Azərbaycanda ciddi, biznesdə də ciddi problemlər olduğundan, bu insanların özlərinə iş qurması da çətinləşəcək. Bu faktor da sosial gərginliyin daha da artmasına səbəb olacaq".

**Ekspertin sözlərinə görə, dünya iqtisadiyyatının və texnologiyaların inkişaf trendi onu göstərir ki, dünyada yaxın illərin ən böyük problemi işsizliklə bağlı olacaq:** "Cəmi 10 ildən sonra bu gün hələ də tələbat olan peşələrin yarıdan çoxu sıradan çıxacaq. Azərbaycanın bəlası isə həm eybəcər idarəetmə sistemidir, həm də texnologiyaların gələcəkdə təsirinin qaçılmaz olmasıdır. Rəsmi rəqəmlərə nəzər salsaq, bu il sentyabrın 1-i vəziyyətinə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 520,2 min nəfər olub, onlardan 887,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 632,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 22 faizi təhsil, 18,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,8 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7 faizi dövlət idarətməsi və müdafiə, sosial təminat, 6,8 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 10,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar. Ölkədə əmək qabiliyyəti olan əhalinin 35 faizə yaxını birbaşa neftdən və büdcədən, yerdə qalanların isə, təqribən, 55 faizi isə dolayısı ilə neftdən və büdcədən dolanır. Məsələn, tikintidə çalışan 7 faizə yaxın vətəndaşın dolanışığı dolayısı ilə neftdən, büdcədən asılıdır: Neft satılır, pulu büdcəyə gedir, büdcədən təmir-tikintiyə pul ayrılır, camaat orada iş tapır. Nəzərə alın ki, təmir-tikinti sahəsində, inşaat materiallarının istehsalı və daşınmasında rəsmi çalışanlardan dəfələrlə artıq qeyri-rəsmi çalışanlar var. Bir sözlə, neft gəliri azalır, tikinti də azalır, iş yerləri itir. Bu yanaşma digər sahələrdə də keçərlidir".

**Ekspertin sözlərinə görə, Azərbaycanın daxili sistemindən qaynaqlanan problemlər var:** "Ölkədə dövlət və hökumət strukturlarının yarısı bağlanmalı və ya birləşdirilməlidir. İdarəetmədə çalışan insanların, ilkin mərhələdə 30 faizi, sonrakı mərhələdə daha 20 faizə yaxını ixtisara düşməlidir. Çünki mənasız, məzmunsuz, əlavə dəyər yaratmayan, insanların təşəbbüskarlığına mane olan işlərlə məşğuldurlar.

İdman sahəsi ölkədə tamamən korrupsiya və çirkli pullar üzərində qurulub, sağlam təməli yoxdur. Bu sistemdən sonra idman sahəsi bir neçə il tamam çökəcək. Hətta ölkənin daxili çempionat keçirməyə komandaları da qalmayacaq. Bütün idman növlərində çöküş yaşanacaq- bu sahədə birbaşa və dolayısı ilə çalışan yüzlərlə insan işsiz qalacaq. Jurnalistika və media- bu sahədə də əsas vəsait dövlətdən, ya da qeyri-leqal məmurlardan gəlir. Media olması üçün reklam bazarı, reklam bazarının olması üçün azad və rəqabətli bazar, azad və rəqabətli bazarın olması üçün isə normal idarətmə və məhkəmə sistemi olmalıdır. Bu sistemdən sonra bir müddət jurnalistlər də işsiz qalacaqlar, bir çox TV kanallar bağlanacaq. Ticarət işçilərinə gəldikdə isə bu sahədə də 2 önəmli əngəl var: ümumi iqtisadi aktivliyin azalması və gələcək üçün isə online ticarətin geniş inkişaf perspektivləri. Ticarətdə çalışanları da ağır illər gözləyir, ciddi işsizlik potensialı olan sahədir".

**Ekspertin sözlərinə görə, kənd təsərrüfatında da ciddi əngəllər var:** "Biz əgər kənd təsərrüfatını rentabelli etmək istəyiriksə, ciddi texniki və yeni texnoloji yanaşmaya keçməliyik, keçsək isə o sahədə də ciddi işsizlik yaranacaq. Məsələn, İsraildə hər hektardan 78 sentner buğda alınır, ortalama, hər 10 hektara 1 nəfər çalışan düşür. İndi özünüz bu sahədə texnika və texnologiyaların tətbiqinin nə qədər işsizlik yaradacağına fikir verin və yeni yanaşma olmasa, bu sahə rentabelli olmayacaq. Turizmlə bağlı isə şişirdilmiş yanaşma var ölkədə, amma potensial da var".

❑ RÖYA

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016

## Xaləddin İsgəndərov Binəqədidə yaranmış bataqlığın badına gedə bilər

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov yenidən medianın gündəminə gəlib. Oktyabrın 17-də Bakıya yağan yağış “odda yanmaz” icra başçısının yenə başı üzərində “qara buludlar” yaradıb. Məsələ ondadır ki, yağan yağışdan sonra Bakıda həyat öz axarına düşsə də, Binəqədidə əhalinin narazılığı səngimir.**




# “Odda yanmaz” icra başçısı suda “batır”

## Vergilər naziri yaxın qohumu olan başçını bu dəfə xilas edə biləcəkmi? İsgəndərovun Prezident Administrasiyasında sərt danlandığı, ona sonuncu dəfə şans verildiyi deyilir; “Təmiz Binəqədi” layihəsinin korrupsiya yemi olduğu üzə çıxır...

Demək olar ki, hər gün X.İsgəndərovun rəhbərlik etdiyi rayon ərazisində əhalinin narazılığı barədə xəbərlər gəlir. Əhali su basmış həyətlərin təmizlənməməsindən, yağışdan sonra daha da bərbad hala düşən küçələrdən, qazın olmamasından şikayət edir, hətta diqqət cəlb etmək üçün yolları kəsirlər.

Binəqədidə yaranmış vəziyyətin düzəlməməsi, sosial mediada rayonda “qayıqla gəzinti” kimi videoların yayılmasının artıq iqtidarda da narahatlıq doğurduğu xəbərləri var. Xüsusilə rayon ərazisində sosial tələblərlə keçirilən lokal aksiyaların tədricən daha mütəşəkkil olması və tənqid hədəfi kimi icra başçısı ilə yanaşı, hökumətin də seçilməsi Prezident Administrasiyasında (PA) ciddi narahatlıq yaradıb.

“Yeni Müsavat”a daxil olmuş məlumatda deyilir ki, X.İsgəndərov ötən həftə iki dəfə PA-ya çağırılıb. İddiaya görə, PA-da icra başçısı özünü “yağış hər yerə yağıb, mənim günahım nə?” kimi sözlərlə “çətirləmək” istəsə də, sərt qınanıb. O, yağışın fəsadlarının aradan qaldırılması işində az qala tək çalışdığını söyləyib, eyiblərini “daxili düşmənlərinin” üzərinə qoymaq istəyib.

Binəqədi ilə bağlı məsələnin həssaslığı həm də ondadır ki, bu rayon əhalinin sayına görə paytaxtın ikinci ən böyük rayonudur *(Xətai rayonundan sonra)*. Binəqədi rayonunun əhalisi təxminən 260-270 min nəfər təşkil edir. Hökuməti narahat edə biləcək daha bir nüans isə Binəqədi ərazisində daha çox qaçqın və məcburi köçkünün məskunlaşmasıdır.

Qaynağımızın məlumatına görə, X.İsgəndərov son günlər icra hakimiyyətində bir neçə dəfə toplantı etsə də, real vəziyyət hələ ki dəyişməyib. Belə ki, Binəqədinin həyət və küçələrində hələ də böyük gölməçələr qalmaqdadır, insanların həyatı normal axara düşməyib...

İnsanların həyatı normal axara düşməsə də, yaranmış vəziyyət X.İsgəndərovun son limitini də “batırıb.” Gələn xəbərlərə görə, PA-da icra başçısına konkret möhlət verilib, ona yanan bina işində olduğu kimi daha güzəşt edilməyəcəyi deyilib. Yeri gəlmişkən, ötən il mayın 19-da 16 mərtəbəli yaşayış binasında 15 nəfərin ölümü ilə nəticələnmiş yanğına görə davam edən son məhkəmə prosesində Xaləddin İsgəndərovun adı yenidən hallanıb. Binanın üzlənməsi işini həyata keçirmiş “Global Stone” şirkətlərinin təsisçisi Miryusif Mahmudov bildirib ki, binanın üzlənməsi təklifi Xaləddin İsgəndərovdan gəlib. Qeyd edək ki, həbsdə olanlardan biri X.İsgəndərovun birinci müavini işləmiş Qəzənfər Novruzovdur ki, o da ilk gündən suçsuz olduğunu deyir.

Binəqədi rayonuna 2012-ci ilin aprelindən rəhbərlik edən X.İsgəndərov özünü hakimiyyətin gözündə qaldırmaq üçün bir neçə piar-layihələrə girişmişdi ki, indi bu əməlləri ona hesab sormaq üçün əsas verib. Onun “Təmiz Binəqədi” layihəsi iqtidarda yaxşı təşəbbüs kimi qarşılansa da, sonradan ayrılan vəsaitlə bağlı ciddi şübhələr yarandı. “Təmiz Binəqədi” layihəsinə ayrılan vəsaitin necə “təmiz” xərclənməsini son yağışlar bir daha sübut etdi. Həmin vəsaitin hara xərclənməsini göz görsün deyə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin önündə təpəciklər salan icra başçısının bu əməyi də tezliklə puç oldu. Yoldakı sürüşmə səbəbindən təpəciklər dağıdıldı ki, bu da “Təmiz Binəqədi” layihəsinin bir korrupsiya layihəsi, heç bir texniki yoxlama aparmadan təpəciklər salmağın da yalnız gözdən pərdə asmaq olduğunu hamı bildi.

Belə xəbərlər də var ki, hökumət artıq qənaət rejiminə keçdiyi üçün icra başçılarının təbiət hadisələrindən - yağışı, qar və küləkdən pul qazanmaları artıq mümkünsüzdür. Bir az güclü külək əsən kimi büdcəyə göz dikən icra başçılarına indi bu imkan tanınmır. Əksinə, onlara bu kimi xırda xərcləri özlərinin qarşılamaları tövsiyə olunur. Ehtimal etmək olar ki, hökumətdən maddi kömək istəyən X.İsgəndərova da “get, indiyədək yığdıqlarından xərclə” deyilsin. X.İsgəndərovu tanıyanlar isə deyirlər ki, hələ vergidə işləyəndən X.İsgəndərovun ən ciddi qüsuru həm də xəsisliyi olub. Belə görünür ki, “oddan” qurtulan X.İsgəndərovu təkcə yağan yağış yox, həm də xəsisliyi bitirə bilər...

Binəqədinin icra başçısının hakimiyyətdəki dayağı vergilər naziri Fazil Məmmədovdur. 2015-ci ilin may ayında bina yanan zaman Xaləddin İsgəndərovun həbsinə hazırlıq getdiyi haqda yarımrəsmi məlumatlar dolaşırdı. Deyilənə görə, onu həbsdən son anda yaxın qohumu Fazil Məmmədov qurtarıb. Artıq belə çıxır ki, onların özünümüdafiə ilə bağlı limitləri tükənib. Necə deyərlər, Binəqədini basan su təkcə X.İsgəndərovun boğazına çatmayıb...

❑ **“YM”**

# Nurçulara qarşı daha bir əməliyyat - 5 nəfər həbs olunub



İlham İsmayıl

## **İlham İsmayıl:** “Həm dini, həm də qanuni yolla maarifləndirməyə ciddi ehtiyac var”

**Bakıda nurçulara qarşı əməliyyat keçirilib. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Qaradağ Rayon Polis İdarəsi əməkdaşlarının rayonun Sahil qəsəbəsində həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qəsəbə sakini, 1983-cü il təvəllüdlü Rizvan Rəşid oğlu Həmidovun yaşadığı evə baxış keçirilib.**

Baxış zamanı oradan təbliği və yayımı qanunla qadağan olunmuş 159 ədəd kitab və 9 ədəd jurnal aşkarlanıb.

Rayonun Lökbatan qəsəbəsində həyata keçirilən tədbirlər zamanı isə qəsəbə sakinləri - 1975-ci il təvəllüdlü İlkin İbrahimovun yaşadığı evdən 14 ədəd, 1977-ci il təvəllüdlü Samir İbrahimovdan 17 ədəd, 1960-cı il təvəllüdlü Tərixanım İbrahimovadan 10 ədəd və 1975-ci il təvəllüdlü Qəndab Hüseynovadan 15 ədəd təbliği və yayımı qadağan olunmuş dini ədəbiyyat götürülüb.

Məlumata görə, evində axtarış aparılan şəxslər nurçuluğu təbliğ edirmişlər.

Nurçulara qarşı əməliyyatın yenidən başlaması bir sıra suallar doğurub. İddia olunur ki, bu proses Türkiyədə baş verən 15 iyun qiyamından sonra Bakıda da həyata keçirilən FETÖ-çülərə qarşı əməliyyatların davamıdır.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bu həbslərin profilaktik tədbirlər olduğunu söylədi:** “15 iyuldan sonra əməliyyatları FETÖ təşkilatı adı altında aparırdılar. Halbuki bizdə FETÖ terror təşkilatı kimi tanınmayıb və fəaliyyəti qadağan olunmayıb. İndi isə xəbər bundan ibarətdir ki, əməliyyat nurçulara qarşı keçirilib. Ola bilsin ki, qadağan olunmuş dini ədəbiyyat var. Əgər bunlar qanunazidd əməl gətirib çıxarmayıbsa, bütün bunların hamısı profilaktik xarakter daşıyır. Hesab edirəm ki, profilaktika həbslərlə deyil, maarifləndirmə ilə olmalıdır. Əks halda, Milli Məclis qərar qəbul etməlidir ki, bu ideya, yaxud nurçuluğu yaymaq qadağan edilir, buna əməl etməyənlər məsuliyyətə cəlb olunacaqlar. Amma indiyə qədər belə bir şey yoxdur. Bunlar olmadığına görə, görülən işləri profilaktik tədbirlər kimi dəyərləndirmək lazımdır. Bu işdə həm dini, həm də qanuni yolla maarifləndirməyə ciddi ehtiyac var. 1990-cı illərdən Azərbaycanda Səid Nursinin təbliğatçıları yayılıb. İndiyə qədər bu, qanunla qadağan olunmayıb. Sən əgər Səid Nursinin kitabını oxumusansa, bunu təhlükə halına gətirmirsənsə, həbs edilmək qanuna düzgün gəlmir. Ona görə maarifləndirməyə böyük ehtiyac var ki, insanlar məsələnin mahiyyətindən xəbərdar olsun. Tutaq ki, bir nəfər həbs olundu. Səhəri gün bir başqasının bu kitab xoşuna gələ bilər. Əgər burada antidövlət, antikonstitusion işlər varsa, bu da izah olunmalıdır ki, camaat işini bilsin”.

**Ekspert həbslərin Məhərrəmlik ayına təsadüf etməsinə də toxundu:** “Məhərrəmlik ayının nurçulara heç bir aidiyyəti yoxdur. Bu, sırf şiələrlə bağlı olan məsələdir. Ekstremizm adı altında qanuna müəyyən sərtliklər verilir. O qərar hələ qəbul olunmayıb. Kimsə daxildə etiqad sahibi olacaqsa, bunu dini ekstremizm kimi qələmə vermək düzgün deyil. Nurçuluqda çox ciddi bəşəri hisslər var. Ona görə deyirəm ki, maarifləndirmə işi aparılmalıdır. Bunların hamısı çəkindirmək, qorxutmaq üçündür. Amma zamanında demişdim ki, dinlə bağlı aparılan siyasət dinə meylli olanların sayını artıracaq. Bir şeyi unutmaq olmaz ki, dində zorla danışmaq mümkün deyil. İdeyaya qarşı zor işlədiləcəksə, bu əks-effekt verəcək. Din həssas məsələdir. Belə əməliyyatlar bir qismə təsir edəcəksə, digər qismdə ikiqat bumeranq təsirini bağışlayacaq. Onlar öz aləmlərində daha mübariz olacaqlar. Ona görə gecə-gündüz telekanallarda mənasız verilişlər verməkdənsə, bu istiqamətdə mütəmadi profilaktik tədbirlər aparsınlar. Özü də bunu Qafqaz Müsəlmanları İdarəsi yox, alimlər aparsınlar. İnsanlar da işlərini bilsinlər ki, hansı addımları atsalar cəzalanacaqlar, yaxud hansıları atmasalar cəzalanmayacaqlar”.

❑ **Cavanşir ABBASLI**



# Manat yenə ucuzlaşır - bəs səbəb...

## Ekspertlərə görə, ilin sonuna dollar 1,90-1,95 manat ola bilər

**Bir neçə gündür ki, milli valyuta olan manat yenidən ucuzlaşmaqdadır. ABŞ-ın milli valyutası olan dolların məzənnəsi oktyabrın 21-də ayın 20-si ilə müqayisədə 0,38 faiz bahalaşaraq 1,6091 manat təşkil edib. Avro isə manata nisbətən ucuzlaşıb. Avrozonanın vahid valyutası 0,17 faiz zəifləyərək 1,7543 manat olub.**

**Ekspert Vüqar Bayramova** görə, sentyabrın ortalarında proqnozlaşdırdığı kimi, manatın qısamüddətli möhkəmlənməsi valyuta bazarımızda dolların güclənməsi ilə əvəz olunmaqdadır: "Manatın möhkəmlənməsi bir neçə həftə davam edə bilərdi. Əslində gözlənilən kimi də oldu. Bununla da təxminən bir aylıq möhkəmlənən manat iqtisadi səbəblərdən dollara qarşı yenidən dəyər itirməkdədir. Dolların yenidən möhkəmlənəcəyi gözlənilən və proqnozlaşdırılan idi. Belə ki, Mərkəzi Bankın manat bazasını məhdudlaşdırması və hərraclarda xarici valyuta intervensiyası uzun deyil, qısamüddətli dövr üçün səmərəli alətlərdir. Digər tərəfdən, neftin dünya bazar qiymətinin azalmağa başladıqdan sonra 11 milyard dollardan artıq vəsaiti artıq xərcləyən Mərkəzi Bankın təxminən 4 milyard dollarlıq valyuta ehtiyatları ilə manevr imkanları da məhdudlaşıb. Daha çox Dövlət Neft Fondunun valyuta təklifləri üzərində prosesə müdaxilə etməyə çalışan Mərkəzi Bankın intervensiya məbləğinin mərhələli şəkildə azalacağı şübhəsizdir".

**Ekspertin sözlərinə görə, bu il üçün ümumi büdcəsi 10 milyard 688 milyon manat olan Dövlət Neft Fondunun isə dövlət büdcəsinə 7 milyard 615 milyon manat transfer etməsi gözlənilirdi:** "Amma büdcənin icrası ilə bağlı açıqlanan son rəqəmlər göstərir ki, heç də nəzərdə tutulan məbləğin hamısı büdcəyə köçürülməyəcək. Fond bu ilin ötən aylarında artıq 3 milyard dollardan artıq valyutanı hərraclar vasitəsilə manata çevirib. Neft Fondu büdcə öhdəlikləri başa çatanadək hərraclara çıxacaq, Mərkəzi Bank isə valyuta ehtiyatlarını qoruyub saxlamağa çalışacaq. Deməli, hər iki qurum orta və uzunmüddətli dövrdə bazarda əsas oyunçu olmaqda maraqlı deyil. Bu baxımdan, valyuta bazarındakı növbəti dəyişikliklər birbaşa hərraca Dövlət Neft Fondu və Mərkəzi Bankın nə qədər valyuta çıxarmasından asılı olsa da, böyük həcmdə valyutanın hər hərracda təklif edilməsi texniki baxımdan mümkün deyil".

**V.Bayramovun fikrincə, dollara olan tələbin artmaqda davam edəcəyi gözləniləndir:** "İdxal, xarici borc ödənişləri və dollarlaşma prosesi xarici valyutalara tələbi yenə də artıracaq. Borc öhdəlikləri ilə yanaşı, ilin sonuna doğru idxalın həcminin artacağı, eləcə də xarici səfərlərin çoxalacağı gözlənilir ki, bu da valyutaya tələbi artıracaq. Neftin dünya bazar qiyməti isə psixoloji təsirlərə baxmayaraq hər barel üçün 50 dollar ətrafında dəyişməkdədir. Deməli, hələlik neftin dünya bazar qiyməti valyuta bazarına hətta psixoloji təsir də göstərə bilmir. Bu baxımdan, xarici valyutaya artan tələb dolların möhkəmlənməsinin davam edəcəyini şərtləndirir".

**Ekspert Natiq Cəfərli isə manatın ucuzlaşmasına belə şərh verib:** "Belə anlaşılır ki, növbədənkənar prezident seçkiləri olmayacaq və nəticədə manat yenə dəyər itirir. Neft isə son 2 gündə 52-53 dollara qədər bahalaşıb. Demək, bizim manat heç bir məntiqə uyğun "üzmür". Əgər siyasi faktor aradan qalxdısa, ilin sonuna dollar 1,90-1,95 manat olacaq".

**Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a bildirib ki, son günlər valyuta bazarında ABŞ dollarının bahalaşması meylləri xarici ticarət əməliyyatlarının və ümumilikdə tədiyyə balansının strukturunda baş verən dinamika ilə bağlıdır. Onun sözlərinə görə, Neft Fondundan valyuta bazarlarına edilən hətta böyük həcmdə olsa belə, müvəqqəti və məhdud intervensiyalar iqtisadi tendensiyaların strateji istiqamətlərinin dəyişdirilməsi gücündə deyil:** "Nəzərə almaq lazımdır ki, ölkə iqtisadiyyatında xarici ticarətin həcmi kiçilməkdədir. Məlumdur ki, bu kiçilmə həm idxal, həm ixrac sferalarında baş verməkdədir. İxracda baş verən azalmanın daha kəskin şəkildə reallaşması xarici ticarətdəki müsbət saldonu minimuma endirib. Əgər 5 il əvvəl, neft gəlirlərinin yüksək səviyyədə olduğu dövrdə xarici ticarətdə müsbət saldo ildə 15-16 milyard dollar səviyyəsində qeydə alınırdısa, indi müsbət saldo təxminən 300 milyon dollar səviyyəsindədir. Yəni bu göstəricinin təxminən 50 dəfə azalması müşahidə olunur. Eyni zamanda keçən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət əməliyyatlarının müsbət saldosunda 10 dəfəyə yaxın azalma müşahidə olunmaqdadır", - deyə ekspert bildirib.

❑ RÖYA

# Bankların birləşməsi niyə mümkün olmur?

## Ekspertlər tezliklə daha bir neçə bankın bazardan çıxacağını da istisna etmirlər, çünki...

**Ölkə banklarının durumu yaxşı olmadığından müntəzəm olaraq birləşdirilmə məsələsi də gündəmə gəlir. Dəfələrlə edilən təkliflərə baxmayaraq, banklar bu məsələdə maraqlı görünmürlər. Son olaraq Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) Direktorlar Şurasının sədri Rüfət Aslanlı bildirib ki, bankların məcburi təmərküzləşdirilməsi siyasət elementi kimi qəbul edilmir:**

"Biz tənzimləyici olaraq 2-3 bankın, sığorta şirkətinin, qurumun birləşdirilməsini uğursuz cəhd sayırıq. Bu məsələlər əvvəllər sınaqdan keçirilib. Məcburi qaydada iki qrupun birləşməsi idarəetmədə fəsadlar yaradır. İki problem üst-üstə gəlir. Mahiyyət və məsuliyyət dəyişmir. Bank sektorunun sağlamlaşdırılmasında dünya təcrübəsini əsas götürmüşük".

**Onun sözlərinə görə, bank sektorundakı problemlər bəlli olub:** "Bu, mövcud qeyri-işlək aktivlər, bank sektorunun xarici valyuta balansının kəsiri, ikiqat devalvasiyanın müəyyən kapital itkiləri formasında təzahür etməsidir. Bu da müəyyən gərginlik yaratmışdır. Palata olaraq bank sektorunun dərin diaqnostikasını aparmışıq, sağlamladırılması üzrə müvafiq siyasət hazırlamışıq".

**Ekspertlər musavat.com-a bankların birləşməsinin nə dərəcədə mümkünlüyündən, o cümlədən bağlanma təhlükəsindən danışıb. Ekspert Natiq Cəfərli qeyd edib ki, birləşmənin mümkün olmamasının səbəbi müxtəlif bankların vəziyyətinin müxtəlif olmasıdır:** "Azərbaycanda bu günə kimi bunun ənənəsi də yoxdur. Bu, əsas səbəblərdən biridir. İkinci səbəb odur ki, bankların sahiblərindən başqa, qeyri-rəsmi banklara nəzarət edən şəxslər də var. Hökumətin müxtəlif pillələrində təmsil olunmuş şəxslərdir. Onların öz aralarında münasibətlərindən tutmuş, bankaların vəziyyətinə qədər obyektiv və subyektiv məsələlər bankların konsolidasiya məsələsinə maneçilik törədir. Hər bir bank öz problemlərinin ən azı, bir hissəsini həll etmədən birləşmə mümkün olmayacaq. Çünki o, ancaq problemlərin toplanmasına, böyüməsinə gətirib çıxaracaq. Düşünürəm ki, bu yolun da başqa alternativi yoxdur. Ölkədə yaxın gələcəkdə problemli banklar ya birləşdirilməlidir, ya da bağlanmalıdır. Buna məcburən gediləcək, çox banklar bazardan çıxacaq. Çünki bir çox bankların tədiyyə balansında, kredit portfelində də ciddi problemlər var".

**Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a bildirib ki, ölkənin bank sektoru üçün zəruri olan optimallaşma siyasətinin əslində bankların ləğvi yolu ilə deyil, onların birləşdirilməsi, imkanlarının konsolidasiyası vasitəsilə həyata keçirilməsi nəzəri cəhətdən daha məqsədəuyğun görünə bilər:** "Çünki bankların ləğvi zamanı hər bir halda bank xidmətlərinin istehlakçılarının bir hissəsi zərərlə üzləşir. Digər tərəfdən, bankların ləğvi dövlət üçün də əlavə xərclər deməkdir. Qeyd etmək lazımdır ki, aidiyyəti dövlət qurumları da bank sektorunda mövcud olan problemlərin əvvəlki mərhələlərində kəmiyyət nöqteyi-nəzərdən optimallaşma siyasətinə əsasən məhz konsolidasiya prizmasından yanaşırdılar. Lakin müvafiq qurumların rəhbərlərinin son bəyanatlarından məlum olur ki, artıq dövlət qurumları bankların konsolidasiya prosesi ilə bağlı ümidlərini itiriblər. Halbuki əslində beynəlxalq təcrübəyə görə, bank sektorunda böhran dövründə konsolidasiya ən optimal variantlardan biri kimi qəbul olunur. Ancaq unutmaq olmaz ki, bu variant bankların təşkilinin iqtisadi prinsiplərə söykənməsi və banklar tərəfindən funksional baxımdan adekvat bankinq fəaliyyətinin həyata keçirilməsi, onların real sektorla əlaqəsinin mövcud olduğu, lakin rəqabət qabiliyyətinin artırılması zərurəti ilə üzləşdiyi hallara şamil olunur. Lakin ölkənin bank sektorunun spesifikasını nəzərə alaraq, bu sektorda konsolidasiya siyasətinin reallaşması ehtimalının aşağı olmasını əminliklə bildirmək olar. Çünki ölkə banklarının əksəriyyətinin formalaşması və işləmə mexanizmləri prosesində prioritet kimi iqtisadi prinsiplər deyil, Beynəlxalq Bankın misalında gördüyümüz kimi, müəyyən maliyyə qruplarının rəhbərlərinin öz vəzifə səlahiyyətlərindən istifadə edərək, yalnız öz maliyyə maraqlarının təmin edilməsi olub. Bu maliyyə qrupları arasında olan ziddiyyətlər, eyni zamanda yarıtmaz menecment nəticəsində bank aktivlərinin tərkibində zərərli aktivlərin xüsusi çəkisinin çox böyük rəqəmlərlə ifadə olunması bu bankların konsolidasiya ehtimalını minimuma endirir. Bundan əlavə, əslində bu bankların konsolidasiyasının müəyyən dərəcədə mənfi iqtisadi fəsadların yumşaldılması baxımından faydası olsa da, onların fəaliyyətində və idarə edilməsində funksional baxımdan uzun müddət ərzində mövcud olmuş problemlər klassik bank konsolidasiyasının müsbət nəticələrinin əksər hissəsini mümkünsüz edir. Belə ki, ekspert hesablamalarına görə, ölkə banklarının ən azından böyük hissəsinin əsas iş prinsipi və mənfəət bazası uzun müddət ərzində xarici maliyyə mənbələrindən əsasən 6-10 faiz dərəcələri ilə xarici valyutada kreditləri cəlb edərək, digər tərəfdən isə əhalidən 9-12 faizlə depozitlərin cəlb olunması vasitəsilə və 28-30 faiz dərəcələri ilə ölkədaxili kreditləşmənin həyata keçirilməsindən ibarət olub. Ölkədaxili kreditləşməyə gəldikdə, bu kreditlərin tam əksəriyyəti ölkənin real sektoruna, əlavə dəyər formalaşan sahələrə deyil, istehlak kreditləri kimi dolayısı yolla idxal sektorunun maliyyələşdirilməsi kimi ölkə iqtisadiyyatı üçün perspektivsiz və zərərli sahələrə yönəlib. İşgüzar aktivliyin azalması, devalvasiya və milli iqtisadiyyatda son zamanlar trend təşkil edən hadisələr isə ölkədə istehlakın azalmasına, problemli kreditlərin və ümumilikdə bankların zərərli aktivlərinin artmasına səbəb olub. İqtisadi qanunlara əsasən, əlavə dəyər formalaşdıran real sektorla bağlılığı olmayan hər bir kredit təşkilatı bu və ya digər formada maliyyə piramidasıdır. Belə strukturlar isə dayanıqlı ola bilməz. Nəticədə ölkədə fəaliyyət göstərən bankların böyük hissəsi perspektivsiz, zərərli aktivlərlə dolu, bir-biri ilə prinsipial ziddiyyətlər təşkil edən və ölkə iqtisadiyyatının inkişafına mane olan qurumlara çevrilib ki, onların birləşdirilməsinin uzunmüddətli perspektivdə hər hansı dayanıqlı effektinin olacağını söyləməyə əsas yoxdur. Bu şəraitdə, aidiyyəti dövlət qurumları tərəfindən ölkənin bank sektorunun mümkün qədər tez bu banklardan təmizlənməsi zəruridir ki, əks halda, həm bank xidmətləri istehlakçılarının, həm də dövlətin zərərinin artacağını proqnozlaşdırmaq olar".

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, bankların yenə də bağlanması məsələsi gündəmə gələcək:** "Bu yaxınlarda 33 bankadan maliyyə hesabatını yalnız 8-i açıqladı. Ötən rüb üzrə hesabatı 15 bank gizlətdi. Hər şey yaxşıdırsa, niyə hesabatlarını gizlədirlər? Belə rəqəm heç Mərkəzi Bankın nəzarət dövründə olmayıb. Təkcə bu kifayətdir ki, görək vəziyyət pisləşir. Bir tərəfdən də bankların açıqladığı ötən il üzrə maliyyə hesabatları göstərir ki, xeyli bankın kapitalı kifayət qədər yoxdur. Çoxunun əlli milyonluq kapitalları yoxdur, kapital tələblərinə cavab vermirlər. Bəziləri əmanətləri də qaytarmırlar. Amma təbii ki, lap dərinə gedib, yoxlama aparsaq, ortaya başqa şeylər də çıxacaq. Yəni buna görə də rəsmilər hərdən sadəcə sakitləşdirici fikirlər bildirirlər. Əhali banklara etibar etmir ki, banklarda pul saxlasın. Adi obyektiv göstəricilər göstərir ki, bank sistemində vəziyyət pisdir. Növbəti banklar da bağlanacaq".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016

**Dövlət başçısı İlham Əliyev xarici donorlar tərəfindən Azərbaycan ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi haqqında fərman imzalayıb. Sənəddə bildirilir ki, son illər ərzində Azərbaycanda vətəndaş cəmiyyəti təsisatlarına dövlət dəstəyinin, onların fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilib. Nəticədə ölkədə qeyri-hökumət təşkilatları güclənib, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən proqramların hazırlanmasında və həyata keçirilməsində onların rolu xeyli artıb.**

# Qrantlar üçün "bir pəncərə" sistemi - əsas gözlənti

## Ekspertlər səbəbləri və proqnozları açıqladılar; **Natiq Cəfərli:** "Hökumətin QHT sektoruna bir güvənsizliyi var"




Sənədə əsasən, Azərbaycanda vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətini dəstəkləmək, xarici donorlar tərəfindən Azərbaycan ərazisində qrantların verilməsi prosedurunu asanlaşdırmaq, bu sahədə şəffaflığı və ayrılan maliyyə vəsaitlərinin məqsədyönlü istiqamətləndirilməsini təmin etmək məqsədilə 2017-ci il yanvarın 1-dən xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipi tətbiq ediləcək.

Fərmana əsasən, xarici donorlar tərəfindən Azərbaycan ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipi üzrə əlaqələndirici dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi kommersiya qurumlarına münasibətdə Azərbaycanın İqtisadiyyat Nazirliyinə, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə həvalə olunub.

Nazirlər Kabinetinə qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi prosedurunun sadələşdirilməsini, o cümlədən onun həm xarici donor, həm də resipiyentin müraciəti əsasında həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini iki ay müddətində Azərbaycan prezidentinə təqdim etmək, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib prezidentə məlumat vermək, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan prezidentinə məlumat vermək tapşırılıb. Ədliyyə Nazirliyi isə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

**Ekspertlər fərmanı fərqli prizmalardan izah ediblər. Həmçinin fərmanın verilmə səbəbləri də izah edilib. Ekspert Natiq Cəfərlinin sözlərinə görə, fərmanın verilməsi bir növ həmin sahədə problemlərin olduğunun etirafı idi:** "Çünki uzun zaman idi ki, sivil toplumla bağlı hökumətin mövqeyi belə idi ki, heç bir problem yoxdur, sivil toplum normal şəkildə fəaliyyət göstərir. Kim hesabatlılıq və şəffaflığa təminat verib bu yöndə çalışırsa, onlarla bağlı heç bir problem yaşanmır. Yəni fərmanın özü və "bir pəncərə" sistemli qeydiyyatın asanlaşması özü-özlüyündə normal, təqdirəlayiq haldır. Amma bu, problemin kökündə dayanan məsələləri həll etmir. Problemin kökündə dayanan məsələ isə ondan ibarətdir ki, hökumətin QHT sektoruna bir güvənsizliyi var. Düşünür ki, QHT sektoru hökumət əleyhinə iş aparan bir "propaqanda" maşınıdır. Əslində isə elə deyil. Elə sivil toplumun məntiqi məğzi, yaranma səbəbi ondan ibarətdir ki, sivil toplum müxtəlif ölkələrində hökumətin apardığı siyasətdəki problemləri tədqiq edir, onları tənqid edir. Çox təəssüf ki, son zamanlar bu sahəyə bir düşmən münasibəti yaranıb. Bu sahədə çalışan insanlar sanki ölkənin düşmənidir. Bu yanaşma dəyişməlidir. Hüquqi cəhətdən isə bəzi, sivil toplumun işləməsinə maneçilik törədilən qanunvericilik aktları ilə bağlı ciddi addımlar atılmalıdır. Ən azından, onları 2010-cu illərin əvvəllərində olan səviyyəyə qədər qaytarmaq lazımdır. Belə olsa, QHT-lərin daha sərbəst şəkildə fəaliyyət göstərməsi üçün əsas yaranar. Bu, hökumətin də marağındadır. Çünki indiki şəraitdə QHT-lərin işləməsi üçün imkanlar yoxdur. Hökumətin də bu sahə ilə bağlı önyarğıları davam edir. Əslində hökumət birinci addım atmalıdır. Sivil toplumun proqramlarda iştirakını təmin etməlidir. Yəni yaxşı hökumətin sivil toplumu həmişə auditi olur və köməkçisinə çevrilir. Dünyanın hər yerində belədir. Bizdə isə sadəcə, qısqanclıq və bu sektorda çalışan insanlara hökumət tərəfindən münasibət fərqlidir. Əslində bu, problemin kökündə duran əsas məsələdir. Bu münasibət dəyişməsə, hökumətin sivil topluma baxışı dəyişməsə, təəssüf ki, atılan bu addım da ciddi nəticə verməyəcək".

**Ekspert Elşad Məmmədov isə musavat.com-a açıqlamasında xarici qrantların verilməsində "bir pəncərə" prinsipi üzrə sistemin tətbiqini bu istiqamətdə proseslərin həyata keçirilməsi zamanı şəffaflığın, dinamizmin və operativliyin təmin olunması baxımından müsbət amil adlandırdı:** "Məlumdur ki, bu məsələlərdə dövlətin hansısa formada nəzarət mexanizmi saxlanılmalıdır və bu baxımdan, bu sahənin tam liberallaşması məqsədəuyğun hesab oluna bilməz. Buna görə müvafiq icra hakimiyyəti orqanlarının məsələ ilə bağlı nəzarət funksiyaları ilə təmin edilməsi zərurəti var. Bununla yanaşı, hesab edirəm ki, bu növ məsələlərin həll edilməsi zamanı şəffaflığın, obyektivliyin, eyni zamanda operativlik və dinamizmin təmin olunması üçün dünya təcrübəsinə söykənən universal vahid meyarlar sistemi tətbiq olunmalıdır ki, icra strukturlarının məsələyə yanaşmasında subyektiv amillərin rolu minimuma endirilsin. Bu meyarlar sərt şəkildə müvafiq hüquqi-normativ aktlarda öz əksini tapmalıdır ki, icra strukturlarında ikili standartların, ikili yanaşmanın tətbiqi mümkün olmasın. Çünki bir sıra hallarda hüquqi-normativ aktlardakı vakuumlar, boşluqlar bu məsələlərdə icra strukturlarına subyektiv yanaşmalara imkan verir. Bununla yanaşı, müvafiq hüquqi-normativ aktlara əsasən həm qrant müqavilələrinin iştirakçılarının, həm də bu məsələlərlə bağlı məsul olan icra hakimiyyəti orqanlarının öz vəzifə səlahiyyətlərinin tələb olunan səviyyədə icrası ilə bağlı məsuliyyət çərçivələri konkret şəkildə müəyyənləşdirilməlidir. Çünki bir çox hallarda, misal üçün, müvafiq qərarların qəbul edilməsi ilə bağlı hətta hüquqi-normativ bazada konkret vaxt nəzərdə tutulduğu halda icra strukturları qərarların qəbulunu xeyli dərəcədə uzadır və buna görə heç bir məsuliyyət daşımır. Beləliklə, düşünürəm ki, bu növ məsələlərdə subyektiv amilin minimuma endirilməsi üçün vahid universal meyarlar tətbiq olunmalı, prosesdə iştirak edən bütün tərəflərin konkret məsuliyyət çərçivələri müəyyən edilməlidir".

❑ **Röya RƏFİYEVA**

# "Rus Bəşər"in rusla şərikli cinayəti



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Belə görünür, Hələbdə insanlıq dramının növbəti mərhələsi başlayır. Bu dramın əsas müəllifi isə böyük ölçüdə Rusiyadır. O Rusiya ki daim avtoritar, diktatura rejimlərinin əsas himayədarı qismində çıxış edir - təbii ki, öz maraqları naminə. Çünki imperiyalar demokratiyadan od sudan qorxan kimi qorxur...**

Artıq daşlaşmış həqiqətdir ki, Rusiyanın ikinci ildir davam edən hərbi dəstəyi olmasaydı, öz xalqına qənim kəsilən Bəşər Əsədin taleyi çoxdan həll olmuşdu. Bəzən iddia edilir ki, Əsəd rejimi devrilsəydi, ölkədə ondan betər bir idarəçilik bərqərar olardı.

Yeri gəlmişkən, "Rus Bəşər"in bu gün də daxili və xarici təbliğatda istifadə etdiyi aparıcı tezis, tutarqa, şüar məhz budur - "Biz getsək, Suriya batar, xaos olar" və s. Guya indi xaos, vətəndaş müharibəsi yoxmuş.

Diktatorların əbədi hakimiyyətdə qalmağa hesablanmış ənənəvi, klassik tryukudur: "Ya biz, ya da heç kim!" Halbuki, Suriya xalqı "Rus Bəşər"in hakimiyyət hərisliyi üzündən təkcə son 4 ildə yüz minlərlə itki verib. Onların böyük hissəsi uşaq, qadın, qocalardır, dinc mülki əhalidir.

Hələ qətliam bitməyib, davam edir, çünki "Rus Bəşər" minimum hədəfinə çatmayıb - Rusiyanın hərbi dəstəyi ilə ölkənin ikinci şəhəri Hələbə nəzarəti ələ keçirməyib. Bir zalımın hakimiyyət hərisliyi və iddiaları naminə çox deyilmi, bir xalq üçün böyük qurban deyilmi?

Bu, həmin Bəşər Əsəddir ki, iki il öncə, ölkədə vətəndaş müharibəsi gedə-gedə, yüz minlərlə suriyalı qonşu Türkiyədə qaçqın statusunda ikən "prezident seçkiləri" keçirmiş, özünü arsız-arsız növbəti dəfə Suriya xalqının legitim prezidenti elan etmişdi.

Sivil dünya, o sırada qardaş Türkiyə əlbəttə ki, onu legitim prezident kimi tanımadı. İndi də tanımır. Amma Rusiya, onunla qohum rejimli digər ölkələr dərhal tanıdı, qəbul elədi. Çünki həmin ölkələrin liderləri də öz xalqına qarşı analoji addımlara hazır olanlardır.

Rusiya prezidenti Vladimir Putinə isə Bəşər Əsədin "legitimliyi"ni tanımaq ən çox ona görə lazım idi ki, 2015-ci ilin sentyabrında "biz Suriyaya qanuni hökumətin xahişli ilə girdik, Qərb qüvvələri isə qanunsuz girib", - deyə bəyan edə bilsin.

"Qanuni hökumət" ha! Müharibə səbəbindən seçkiyə xalqın yarıdan çoxu qatıla bilməyib, heç bir seçki yarışı olmayıb, amma bunlar legitimlikdən dəm vurur. Təəssüf ki, beynəlxalq ictimaiyyət də Əsəd tipli diktatorların bu kimi siyasi-hüquqi hoqqabazlıqlarını önləmək gücündə deyil. Yenə də Rusiya imkan vermir. Çünki SSRİ-nin hüquqi varisi kimi imperialist Rusiya BMT Təhlükəsizlik Şurasında veto hüququna malik 5 dövlətdən biridir.

Bəşəriyyətin ən böyük faciəsi də Rusiya imperiyasına veto hüququnun verilməsidir. 25 il qabaq SSRİ ləğv olunanda gərək Rusiyaya bu hüquq tanınmayaydı, Rusiya BMT TŞ-də Almaniya kimi 15 dövlətdən biri olaydı. Zira, bu - əslində Kremlin veto hüququ deyil, Bəşər kimilərin bəşəriyyət əleyhinə hərbi cinayətlərinə "dobro vermək" hüququdur, lap dəqiqi, bəşəriyyət əleyhinə cinayətlərə şərik olmaq hüququdur!

Rusiyanın veto hüququ əlindən alınmayınca və ya ona qarşı neytrallaşdırıcı mexanizm tapılmayınca, yaxud Rusiya imperiyası zəifləyib çökməyincə, dünyada, regionda heç vaxt ədalətli sülh olmayacaq. Deməк, "Rus Bəşər"lərin cinayətləri davam edəcək, Qarabağ ixtilafının ədalətli həlli də əlçatmaz olaraq qalacaq.

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016



# Sürücülük kursu

Zamin HACI
zaminhaci@gmail.com

**Venesuela prezidenti, Uqo Çaves irsinin layiqli davamçısı Nikolas Maduro yoldaş təzəlikcə Bakıya rəsmi səfərə gəlmişdi. Düzü, bizə məlum olmadı bu səfərin mənası nə idi. Venesuela camaatına dünəndən məlum deyil, çünki onlar hazırda başlarının, daha doğrusu, qarınlarının hayındadırlar, uzun illərin sosializminin və müftə neft gəlirlərinin yaratdığı deqradasiyanın altından çıxmağa çalışırlar. İqtisadiyyat rəsmi şəkildə çezib, siyasi aləm də ondan qabaq qarışıqdır.**

Təsəvvür edin, orda bir dənə toyuq yumurtasının qiyməti 100 bolivardır, onu da hələ tapsan. Bolivar Venesuelada pul vahidinin adıdır, yüzlük bolivar isə ən böyük pullarıdır. Eynən bizim 100 manat kimi. Əgər biz bir yumurtanı 100 manata almalı olsaq, inqilab edərik, yalan olmasın. *(Zarafat üçün yazdım, biz dövlətçiliyi dəstəkləyirik. Yumurta tapılmasa, xalqın ehtiyacını ödəmək üçün yumurtlamağa hazır qəhrəman oğullarımız, igid məmurlarımız vardır! Allah Qorbaçovun evini yıxsın!)*

Belə ehtimal var ki, Maduro gəlmişdi neftin qiymətini qaldırmaq üçün bizim hökumətlə danışıq aparsın. Ancaq dünya neft bazarında Azərbaycan neftinin çəkisi 0,6 faizə *(sıfır tam onda altı - dəqiq oxudunuz)* yaxındırsa, bizim istehsalı azaldıb artırmağımızdan nə olacaq? Heç zad. Elə bil Biləcəridə xaş yeyəndən sonra yaxşıca gəyirirsən və güman edirsən ki, bunun ozon qatının deşilməsinə, qlobal istiləşməyə təsiri olacaqdır.

Ancaq nə biləsən, kəpənək effekti adlı bir hal var, təbiətşünaslar, ekoloqlar, fantast yazıçılar xaotik sistemlərdə kiçik təkanlardan yarana biləcək böyük dəyişiklikləri bu adla ifadə edirlər. Misal üçün, kəpənək effektinə görə Avstraliyada hansısa kəpənəyin dalğalandırdığı hava ABŞ-ın Florida bölgəsində şiddətli qasırğaya səbəb ola bilər. Doğrudan da təbiətin harmoniyası səbəb-nəticə əlaqələrinin sonsuz, bəzən də qapalı *(elə buna da mənaca sonsuz deyə bilərik)* hadisələrindən ibarətdir. Başqa cür izah etsəm, örnək üçün, sən bir qarışqanı tapdalayırsan. O qarışqa yuvaya dən aparırdı, nəticədə qarışqa ailəsi qışdan sağ çıxmadı. O qarışqaları yeyən quşlar ac qalıb öldülər. Quşlar öləndə zərərli həşəratlar artdı, dənli bitkiləri məhv elədilər. Ərzaq tapmayan adamlar da müharibəyə başladılar, bir-birini qırdılar və sairə. Ağır söhbətdir, çox aludə olsan, adam yeriyə bilmir. Ümumiyyətlə, gərək küçəyə tüpürməyəsən, çünki böcəklər bunu göl bilib üzmək istəyir, nəticədə boğulurlar.

İndi ola bilsin Maduro bizdən qənaət öyrənməyə, bu qənaəti Venesuelada tətbiq eləməyə gəlmişdi. Yaxud, Göyçay həkimlərinin pambıq əkməsini, Hadı müəllimin sosial, Aqil müəllimin aqrar, İqbal müəllimin iqtisadi, Artur müəllimin art siyasətini *(qulaq qafiyəsi üçün yazdım, mənası yoxdur, qəti fikir eləməyin)* öyrənib ölkəsinə aparacaqdı. O cümlədən, ev isti olanda qazı azaltmaq, yoxsa pəncərəni açmaq kimi siyasi-elmi sirləri bizdən yox, kimdən öyrənəcəksən? Hətta yaxşı olar Venesuela xalqının qazını kəsib Qayana camaatına verəsən.

Yeri gəlmişkən, hər bir özünə hörmət edən avtoritar rejimin xalqın ağzını yönəltmək üçün müəyyən "Qarabağ problemi" olmalıdır. Kimsə azadlıq istəyəndə, "bizim Qarabağ dərdimiz var" deyirsən, səsini kəsir. Venesuela da kimdən əskik dövlətdir? Prezident olmazdan qabaq avtobus sürücüsü işləmiş Maduro müəllim qonşu Qayana dövlətinə göz dikibdir, camaat dükana növbəyə duranda laqqırtı vursun deyə söhbət atıbdır: "Qayananın yarıdan çoxu qədim Venesuela torpağıdır. Biz oranı azad edəcəyik!" Artıq yerli televiziyalarda hər gün "Ya Qayana, ya ölüm, başqa yolu yox artıq", "Biz ölərik Qayananı verməik", "Alexandronun balası torpaq uğrunda ölməlidir, Maduro kef eləməlidir!" tipli verilişlər gedir.

Ancaq Azərbaycan təcrübəsi, deyəsən, Maduro müəllimin işinə yaramayacaq, çünki o hələ ölkəyə dönməyə imkan tapmamış Venesuela deputatxanası prezidentə impiçment qoymaq haqda prosedurlara başlayıbdır. Çoxlu qəşəng qızları olsa da, bu Venesuela xalqı deyəsən heç qədirbilən, sevgili xalq, uca millət deyildir. İnsafən, bəzən sürücüdə günah olmur, avtobus sınıq-salxaq çıxır. Gərək səndən qabaqkı şofer maşını sazlayıb versin.

# Ermənistandan təxribatçı gediş: sülh ideyası sabotaj edilir

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu il üçün regiona sonuncu səfəri də başa çatdı. Amerikalı həmsədr Ceyms Uorlikin verdiyi kasad açıqlamadan belə qənaət hasil oldu ki, vasitəçilər Qarabağ danışıqlarına heç olmasa, ilsonu hansısa töhfə vermək niyyətindədirlər. Bundan ötrü isə Azərbaycan və Ermənistan prezidentlərinin daha bir görüşünü reallaşdırmağa ümidlidirlər.**



# İşğalçının təhlükəli strategiyası - düşmən müharibəni seçir...

## Rəsmi Bakının Qarabağla bağlı son xoşməramlı jestləri və Ankara-Moskva yaxınlaşması İrəvanı yanlış seçimə tuş edib; **amerikalı ekspert:** "Türkiyə Qarabağ məsələsində getdikcə daha fəal rol alacaq"; Qarabağın taleyi indi həm də Suriyada həll olunur, çünki...

Ancaq prezidentlərin növbəti nəticəsiz görüşünə lüzum varmı - əgər ümumiyyətlə, işğalçı ölkə xüsusən də son vaxtlar məsələdə radikal mövqe və davakar ritorika sərgiləyir, Rusiyadan aldığı bəzi silahlarla Azərbaycana hədə gəlməyə çalışırsa?! Həmsədrlərin regionda olduğu vaxt isə Ermənistanın müdafiə naziri, Silahlı Qüvvələrin Baş Qərargah rəisi və prezident Serj Sərkisyanın hərbi müşaviri nümayişkaranə şəkildə işğal altındakı Dağlıq Qarabağda, Xankəndində idilər.

***

Bu harasıdır, Minsk Qrupu həmsədrləri İrəvanda olarkən onlara bildiriblər ki, Ermənistanın yeni hökumətinin proqramına belə bir prinsip daxil edilib: "Bir qarış da olsun torpaq..." - hansı ki, "avtomatik strategiya olur". Virtualaz.org-un məlumatına görə, bu haqda erməni KİV-inə idarəetmə üzrə ekspert Arutyun Mesrobyan bildirib.

Yəni faktiki, rəsmi İrəvan danışıqlar prosesindən bütünlüklə çəkilmək fikrindədir. Bu, əlbəttə ki, vasitəçilik missiyasına qarşı böyük təxribat, sülhdən imtina və ən başlıcası, müharibə yolunu seçməkdir. Eyni zamanda konfliktin həlli üçün Azərbaycana savaşdan başqa heç bir başqa yol qoymamaqdır.

Ümid edək ki, vasitəçilər rəsmi İrəvanın pis-yaxşı aparılan danışıqlar prosesini, bütövlükdə sülh ideyasını sabotaj edən bu təhlükəli planı ilə bağlı konkret mövqe ortaya qoyacaqlar. Ən azı ona görə ki, Ermənistanın belə mövqeyi Minsk Qrupunun varlığını əhəmiyyətsiz edir.

Başqa yandan, aydındır ki, erməni tərəfi "bir qarış da torpaq güzəştə gedilməyəcək" deyərkən Dağlıq Qarabağ ətrafındakı rayonları da nəzərdə tutur. Demək, işğalçı tərəf faktiki, müharibəni seçir. Təsadüfi deyil ki, son zamanlar həmin ərazilərdə - etnik təmizlənməyə məruz qalmış Azərbaycan ərazilərində düşmən ölkə yenidən Suriya ermənilərini yerləşdirmək həvəsinə düşüb. Görünür, aprel dərslərini unutmağa başlayıblar...

***

İşğalçı ölkənin son de-marşları Azərbaycan prezidenti İlham Əliyevin "ərazi bütövlüyü məsələsində heç vaxt güzəşt olmayacaq" bəyanatı və "muxtar respublika" təklifi ilə təxminən eyni vaxta düşməsi, habelə Rusiya-Türkiyə münasibətlərinin istiləşdiyi dönəmə təsadüf etməsi ilə də diqqət çəkir. Xüsusən də Ankara-Moskva yaxınlaşmasını İrəvan həmişə özünə qarşı təhdid hesab edib və Qarabağ məsələsinə bu amilə ciddi təsir rıçaqı kimi baxıb.

Bugünlərdə Rusiya xarici işlər naziri Sergey Lavrovun və XİN-in sözçüsü Mariya Zaxarovanın konfliktin həllində Ankaranın müsbət rol oynayacağı ilə bağlı fikirləri Ermənistanda ciddi narahatlıq doğurub. O üzdən gec-tez işğal altındakı əraziləri qaytarmaq zorunda qalacağını anlayan İrəvan belə siyasi manevrlərə əl atır, vaxt uzatmağa, status-kvonu, işğal rejimini saxlamağa çalışır.

**Vaşinqtondakı "Qulf Steyt Analitiks"in məsləhətçisi, siyasi şərhçi Teodor Karasikin də hesab edir ki, Türkiyə amili Qarabağ məsələsində getdikcə daha fəal rol ola bilər (axar.az).**

"Rusiya və Türkiyə birinci Suriya, ikinci isə Qarabağ məsələsində əməkdaşlıq edir. Bu məsələlər birbaşa bağlı deyil, amma geosiyasi əlaqə var. Moskva rəsmi Ankaranın Dağlıq Qarabağa dair müzakirələrə qoşulmasını müsbət dəyərləndirir. Kremlin fikrincə, Türkiyənin konfliktin həlli istiqamətində danışıqlara qoşulması müsbət nəticə verə bilər" - ekspert vurğulayıb.

"Ankaranın, əlbəttə, Qafqaz mövzusunda köhnə inciklıyi var və Rusiyanın Türkiyəni Qarabağ məsələsinə daxil etməsi siyasətinin gözləniləndən tam fərqli bir effekt verməsi ehtimalı da mövcuddur. Qarabağ və Suriya məsələsi arasındakı yeganə əlaqə proseslərə daxil olan oyunçularla bağlıdır. Yaxın Şərq krizisinin davam etdiyi müddətdə, böyük ehtimalla bunun əks-sədası Qafqazda hiss ediləcək, xüsusilə o halda ki, terrorçu-ekstremistlər Azərbaycana və ya ona qonşu Rusiya ərazilərindən birinə, məsələn, Dağıstana gedərsə", - deyə analitik qeyd edib.

***

**Bir sıra digər müşahidəçilərə görə də regionda Ankara-Moskva əməkdaşlığına hələ uzun müddət ehtiyac olacaq. Hesab edilir ki, ələlxüsus Suriya böhranının aradan qaldırılmasında bu iki dövlətin nə dərəcədə dil tapması Güney Qafqazla bağlı konfliktli situasiyaların çözülməsi üçün bir presedent, təcrübə ola bilər.**

**Bu mənada Qarabağın taleyi beynəlxalq təşkilatlardan daha çox, indi həm də Suriyada, Yaxın Şərqdə həll olunur.**

❑ **Siyasət şöbəsi**

# Türkiyədə ticarət mərkəzlərini partlatmaq istəyən terrorçular tutuldular

**Mersində böyük insan qırğınının qarşısı alınıb. Milli.az milliyet-ə istinadən bildirir ki, bombalı hücum hazırlayan 3-ü qadın olmaqla, 12 PKK terrorçusu tutulub.**

Əməliyyat zamanı xeyli sayda partlamağa hazır hala gətirilmiş uzaqdan idarə edilən partlayıcı maddələr ələ keçirilib.

İstintaq zamanı terrorçuların polis binaları, vətəndaşların sıx olduğu küçə və ticarət mərkəzlərini hədəfə aldıqları məlum olub.



**İraqda Mosul əməliyyatları çərçivəsində son bir həftədə bölgənin türk əhalisi olan türkmənlərin qırğınlara məruz qalması hər kəsi ciddi şəkildə narahat edir. Türkiyə və Azərbaycan cəmiyyətlərinin əsas mövzusu məhz budur.**

# Azərbaycan türkmən məsələsində niyə susur - iqtidar deputatları danışdılar

## Zahid Oruc: "O əməliyyatlar Azərbaycanda legitimlik qazanmayıb"

## Bəxtiyar Sadıqov: "Misal var, "özünə umac ova bilmir, özgəsinə əriştə kəsir"



Amma maraqlıdır ki, iki qardaş ölkənin əhalisi dini, soykökü eyni olan türkmənlərə qarşı baş verənləri sərt şəkildə qınasalar da, narahatlıqlarını ifadə etsələr də, dövlət səviyyəsində bunların şahidi olmuruq.

**İqtidaryönlü deputat Zahir Oruc** bildirdi ki, türkmənlərin taleyi Azərbaycan hökumətini yaxından narahat edir: "Zənn etmirəm ki, qeyd olunan sükut mövqeyi müşahidəsizlik, diqqətdən kənarda qoymaq, onların taleyinə biganəlik kimi qavranmalıdır. Hansi siyasi addımların atılması başqa məsələdir. Bu məsələnin cəmiyyətin müxtəlif təbəqələrində parlamentdə, partiyalarda, beyin institutlarında müxtəlif notalar, bəyanatlarla qarşılanmasını istəyirlər. Düşünürlər ki, terrordan təmizləmək adı altında bu əməliyyatlarda əsas rol oynayan Amerikanın Azərbaycandakı səfirliyinə, dövlətin özünə müxtəlif reaksiyalar göstərmək, yaxud müraciət etmək lazımdır. Bir qisim şəxslər də var ki, daha irəli gedərək, türkmənlər məsələsinə biganəlik göstərməyin düzgün olmadığını və Türkiyə ilə birlikdə türkmənlərə hərbi yardımın göstərilməsini vacib sayırlar. Burada dövlətin maraqları nəyi tələb edir? Düşünürəm ki, Türkiyə ilə kardinal hərəkət etmək çox vacibdir. Çünki qardaş ölkə bütün hallarda bu problemlərin içərisindədir. Həmin məkandan gələn təhlükələr Türkiyənin üzərindədir. Biz bu məsələdə mövqeyimizi həmin ərazilərin tarixi Azərbaycan torpaqları olması, yaxud milli-etnik amil üzərindən deyil, eyni zamanda Türkiyənin təhlükəsizliyi üzərindən çıxış edə bilərik. Deputatlar, dövlət rəsmiləri səviyyəsində bu məsələyə aktiv şəkildə münasibət göstərilə bilər. Bunu zəruri sayırıq. Burada dövlətin ali rəhbərliyindən qərarlar və hərəkət gözləmək də düzgün olmazdı. Çünki çox mürəkkəb bir dövrə qədəm qoymuşuq. Dünyanın yenidən bölüşdürülməsi əməliyyatları getməkdədir. Bu gün göstərdiyin reaksiyalar, sanki səni böyük hərbi, siyasi oyunun içərisinə salır. Ona görə də bunları nəzərə alaraq, deputatlar, siyasi institutlar, partiyalar səviyyəsində məsələyə münasibət sərgilənə bilər".

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov bildirdi ki, ərazi bütövlüyü ilə bağlı yaşadığı problemləri həll edə bilməyən bir ölkənin bununla bağlı mövqe bildirməsi düzgün deyil:** "Azərbaycanın özünün əraziləri təcavüzə məruz qalıb, torpaqlarımız işğal altındadır. BMT-nin məlum 4 qətnaməsi indiyə qədər icra olunmayıb. ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkələr heç bir iş görə bilməyiblər. Son dərəcə dişsiz "fəaliyyət" göstərirlər. Bir misal var, "özünə umac ova bilmir, özgəsinə əriştə kəsir". İndiki vəziyyətdə öz problemlərimizin həllinə nail ola bilməmişik. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan kimi dövlətin bu məsələ ilə bağlı hansısa addımı atması, açıqlama verməsi uyğun deyil. Sən öz problemini həll edə bilmisənmi, başqasına kömək edirsən. Humanitar yardım məsələsi gündəmə gəlsə, Azərbaycan daim buna hazırdır. İndiyə qədər belə yardımlar dəfələrlə olub. Dövlətimiz yenə də hazırdır. Amma kimə necə çatdırılacağı, kimin çatdıracağı, hansı yollarla bunu edəcəyi də müəmmalıdır. Çünki hazırda hərbi əməliyyatlar gedir. Biz azərbaycanlı, müsəlman olaraq, türkmənlərə ürəyimiz yanır. Rəngli inqilablardan, hansısa "bahar"lardan əziyyət çəkən, öz yurd-yuvasından didərgin düşən, dənizlərdə boğulanların vəziyyətləri-ni başa düşürük. İlk növbədə, insan kimi acıyırıq. Dünyanı idarə edən güclər qan çanağı yaradırlar. Bunlar bizim yardımlarımız, köməyimizlə həll olunan məsələ deyil. Arzu edək ki, o insanlar, siyasətçilər ağıla gəlsinlər, hamının insan olduğunu, hər bir ölkənin vətəndaşlarının insan kimi yaşamaq hüququnun olduğunu qəbul etsinlər. Özü də onların öz evlərində, vətənlərində yaşamaq hüquqlarını anlasınlar və buna şərait yaratsınlar".

❑ **Cavanşir ABBASLI**

# WikiLeaks-ın Klintonu hədəfə almasının sirri

## Gizli yazışmaları açmaqla Klintonun seçilməsinin qarşısını almaq mümkün olacaqmı...

**ABŞ prezidentliyinə demokrat namizəd Hillari Klintonun dövlət katibi olarkən yazışmaların bir hissəsini şifrələnmiş elektron ünvandan deyil, öz şəxsi elektron poçtu üzərindən apardığı üzə çıxıb. Habelə Rusiyaya bağlı hakerlər Demokratlar Partiyasının Milli Komitəsinin elektron poçtunu sındırıblar.**



H.Klintonun seçki qərargahının rəhbəri Con Podestanın poçtundan ələ keçirilmiş sənədləri hazırda qalmaqallı WikiLeaks saytı yaymaqdadır. Qeyd edək ki, bu sayt seçki kampaniyası başlayandan H.Klintona qarşı intensiv qara piar aparır. Dünyaca məşhur olan saytın Klintonu hədəfə almasının arxasında Rusiyanın və prezidentliyə respublikaçı namizəd Donald Trampın əlinin olduğu iddiaları var. Bu iddiaları irəli sürənlər "Nədən bu sayt və onun arxasında dayananlar Klintonun seçilməməsi üçün çalışır" sualını da irəli sürürlər.

**ABŞ siyasətinə bələd olan, əvvəlki seçkilərdə Hillari Klintonun seçki qərargahında fəaliyyət göstərmiş gənc fəal Bəxtiyar Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Klintonun dövlət katibi olarkən şəxsi serveri üzərindən müəyyən sənədlərin göndərilməsi ilə bağlı araşdırmalarda onun qanunazidd heç bir addım atmadığı ortaya çıxıb, göndərilən sənədlər həmin zaman məxfi sənədlər olmayıb. Təbii ki, bu cür araşdırmalar Klintonun ilkin seçkilər zamanı nüfuzuna xeyli zərbə vurmuşdu, onu əsas məsələlər ətrafında danışmaqdan yayındırıb, bu məsələyə köklənməyə vadar edirdi. Ancaq indiki mərhələdə onun elektron poçt qalmaqalı seçki mövzusu olmaqdan çıxıb:** "Seçkilər zamanı xanım Klinton qərargahının rəhbərinin elektron poçtuna rusiyalı hakerlərin hücumu isə Klintonun seçilməsinin qarşısını almaq, Rusiyaya münasibətdə daha loyal, daha yumşaq mövqe sərgiləyən Trampın seçilməsinə təkan vermək cəhdidir. Hillari Klinton 30 ildən artıqdır ki, ictimai-siyasi həyatdadır, bir çox məsələdə onun mövqeyi bir çox maraq qruplarının maraqlarını ya tapdalayıb, ya da gələcəkdə tapdalayacaq. Məhz buna görə də ABŞ daxilində və ABŞ-dan kənarda bir çox maraq qrupları, qüvvələr Klintonun seçilməsinə qarşı fəaliyyət göstərirlər. Ancaq düşünürəm ki, indiki mərhələdə artıq hər şey üçün gecdir. Seçkiyə 3 həftədən də az vaxt qalıb, namizədlər arasında 3-cü və sonuncu debat da arxada qalıb".

B.Hacıyev qeyd etdi ki, sonuncu debat Trampın özünü Klintondan fərqləndirmək, üstün göstərmək və prezident olmağa layiq olduğunu sübut etmək üçün son şansı idi. Tramp isə ard-arda siyasi baxımdan korrekt olmayan, amerikalıları qəzəbləndirəcək ziddiyyətli çıxışlar etməklə, bu şansını da əldən buraxdı.

❑ **Etibar SEYİDAĞA**

# Yazmaqla düzələndirmi bu ölkə?..



**Hüseynbala SƏLİMOV**

**Bir vaxt Artur Konan Doylun və Aqata Kristinin təsiri altında məndə İngiltərə haqqında da belə təsəvvür yaranmışdı - bu ölkə o qədər sirli və tilsimli görünürdü ki, bəzən kitablardan aldığım təəssürat əməlli-başlı qorxudurdu məni...**

İndi "Azərbaycan da məni qorxudur!" desəm, bir azacıq ifrata varmış olaram. Amma yalnız bir azacıq...

Böyük hesabla götürəndə isə indi elə bizim Azərbaycan da məni lap qorxutmağa başlayır. Yox, bu, detektiv romanların təsiri altında yaranmayıb. Doğrusu, mən heç əməlli-başlı bilmirəm də ki, bu ədəbi janr bizdə nə qədər inkişaf edib... Amma mənə məlum olduğuna görə, bu sahədə ən azı axırıncı yerlərdə də deyilik, hətta deyilənlərə inansaq, lap ilk yerlərdən birindəyik...

Fəqət, mən Azərbaycan detektivinin elə də oxucusu deyiləm. Sadəcə, bu yaxınlarda özümüz haqqında fikirləşəndə birdən ağlıma gəldi ki, əcəba, niyə bizim seriallarımız, sənədli filmlərimiz bu qədər zəifdir? Niyə bizdə kino sənəti ürəyimiz istəyən səviyyədə deyil?

Baxıb görürsən ki, bu vaxta qədər bizim bəzi strukturlarımızda baş verən proseslər ən kəskin detektiv süjetlərin ustalarını belə lap mat-məəttəl qoyardı. Amma yazmırıq, çəkmirik və tamaşa qoymuruq. Niyə? Bəlkə də ona görə ki, bizdə bütün iplərin ucu çox uzaqlara gedib çıxır...

Burada böyük Volterin bir fikrini azacıq dəyişərək, "redaktə" edərək sizlərə çatdırmaq istəyirəm. Volter deyirdi ki, siyasət maqnit kimdir, bir ucu adamı çəkir, o biri ucu isə elə eyni qüvvə ilə də itələyir...

Əslində "detektiv məsələsi" də hər dəfə siyasətdən yazanda ağlıma gəlir. Bəzən elə hey özümdən soruşuram: "25 ildən çoxdur ki, siyasi publisistika ilə, siyasi təhlillə məşğulsan. Bu illər ərzində səndə heç belə sual yaranıbmı ki, bütün bunlar nəyə lazımdır və bütün bunların heç bir faydası varmı?"...

Bəli, Azərbaycan bizim yazdıqlarımızdan qat-qat qəliz və mürəkkəb bir ölkədir. Baxmayın ki, çox kiçikdir! Baxmayın ki, gənc dövlətdir və bu ölkə dünya siyasətində elə bir rol da oynamır...

Əslində biz əsl problemlərdən yazmaq əvəzinə əksər hallarda onların ətrafında gəzişirik və özümüzü də elə göstəririk ki, guya, hansısa dərin mətləblər xırdalayırıq...

Amma bu, yalnız bizim günahımız deyil. Bu ölkə haqqında əsl həqiqəti yalnız bircə dəfə yazmaq olar. Bundan sonra ya dünyanı, ya da ən yaxşı halda ölkəni dəyişməlisən...

Şəxsən mən isə hələ bu dünyadan usanmamışam və o biri dünyaya da tələsmirəm. Ölkəyə qaldıqda isə, onu da dəyişmək fikrim yoxdur. Elə bu səbəbdən də yazmaqdan çox, hansısa mövzu ətrafında gəzişmələr edir, variasiyalarla məşğul oluram. Başqa nə etmək olar?..

Ən maraqlısı isə bilirsinizmi nədir? Bu, təkcə Azərbaycanda belə deyil, əslində çox yerlərdə belədir. Bir vaxtlar ilk dəfə amerikalı F.Zakarianın "Azadlığın gələcəyi" bestselleri haqqında oxuyanda ağlıma gələn ilk fikir bu olmuşdu ki, heç azadlıqla bağlı da narahatlıq keçirməyə dəyərmi?..

O vaxt mənə belə gəlirdi ki, azadlıq və demokratiya ilə bağlı problemlər yalnız iki-üç ölkədə qalıb və çox tez zamanda bu problemlər də öz həllini tapacaq. Amma indi düşünürəm, çox təəssük nəticə imiş bu və sən demə, bir vaxtlar soyuq müharibənin olması, iki qlobal siyasi sistem arasındakı çəkişmələr azadlığın və demokratiyanın da keyfiyyətinə təsir edirmiş...

İndi baxıb görürsən ki, yalnız kiçik və gənc Azərbaycanda belə deyildir, elə digər ölkələrdə də siyasətçilər azadlığı və demokratiyanı sıxışdırmağa, onları daha çox məhdudlaşdırmağa və özlərinə sərf edən çərçivəyə salmağa çalışırlar. Uzağa getmirəm, Türkiyədə bunu getdikcə daha çox hiss edirəm...

Məsələn, televiziyaları götürün. Azərbaycanda onlar hansı vəziyyətdədir, bu, hamıya çox yaxşı bəllidir. Amma baxıb görürsən ki, bütün digər ölkələrdə olmasa da, çoxunda vəziyyət belədir - telekanallar elə bil hər yerdə bayağılaşıblar, şitləşiblər...

Sanki onların bir qayğısı var: mümkün qədər daha çox adamı güldürmək və yaxud da ağlatmaq... Hətta bəzən adama elə gəlir ki, imkanları olsaydı lap ekranlardan əllərini uzadıb bizləri qıdıqlayardılar ki, onların bayağı "yumor"larına gülək...

Ona görə də əsl jurnalistika məsələsi düşünüləndən qat-qat qəlizdir. İstənilən məsələni ciddi şəkildə araşdırsan, bir detektiv olayın qurbanı olmaq şansın var. Təbii, bu sarıdan ən çox "bəxti gətirən" də ilk növbədə siyasətdən yazan jurnalistlərdir...

Bir az əvvəldə böyük Volterin sözlərini nahaq yerə xatırlatmadım. Ürək adama deyir ki, biganə olma, yaz-poz... Ağıl isə buyurur ki, yox, ehtiyatlı ol, birini görəndə, çalış, üçünü görmə, çünki belə daha yaxşıdır. Həm də yazmaqla düzələsi dünya deyil bu...

Min ildən çoxdur ki, insanlar hey yazırlar. Amma düzəlmir ki, düzəlmir... Ona qalsa, ilk yazını yazan və onu Yerə, insanlara göndərən Tanrının özü olub. Amma nəsə düzəlibmi?..

Bəli, çox çətin sualdır. Həm də ona görə ki, burada başqa bir sual da meydana çıxır: gör, yazılar olmasaydı, Tanrı özü, onun yaratdığı sevimli insanlar yazmasaydılar onda nə gündə olardı bu dünya? Elə bu səbəbdən hərlənib-fırlanıb yenə də bir qənaətə gəlirsən: yaxşısı yenə də yazmaqdır, çünki hər şeydən əvvəl yazı olub...

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016



# Ailə-məişət zəminində metamorfoza

Samir SARI

**Bu yazının yazıldığı vaxt (gündüz saat 11) gündəlik qətl statistikası belədir: iki kişi öz ömür-gün yoldaşlarını amansızlıqla öldürüb. Hadisənin biri Bakıda, o biri Zərdabda baş verib.**

Öldürülən qadınların biri gəncdir (23), digəri orta yaşın gəncidir (37).

Zərdabda baş verən qətl qısqanclıq zəminində olub, Bakıdakı ailə-məişət zəminində.

Zatən, qadınların (bəzən də kişilərin) qətli ilə nəticələnən qovğalar məhz bu iki zəmində olur. Bu ölkədə arvadını siyasi baxışlarına görə öldürən olmayıb. Hərçənd həmin motivlə döyən başıxarablar ola bilər.

Bəzi jurnalist dostlar hesab edirlər ki, media belə xəbərləri verməməlidir, çünki bu kimi xəbərlər, eləcə də qoşulub qaçmalar, xəyanətlər, ailəiçi zorakılıqlar "sarı mətbuat"a aid xəbərlərdir.

Amma elə deyil. Dünyanın hər tərəfində, xüsusilə də mədəni ölkələrdə bu cür xəbərlər qəzetlərin manşetinə çıxır, telekanalların xəbərlər bülletenində yer alır, tok-şoularda müzakirə olunur.

Məsələn, qardaş Türkiyədə (arvad öldürməkdə onların da üzü ağdır) demək olar ki, hər gün "daha bir (hərdən iki) qadın kişi terrorunun qurbanı oldu" kimi xəbərlər gedir, ardınca buna etiraz edən ictimai fəalların aksiyasını göstərirlər. Fəallar bu cür transparantlar qaldırırlar: "Qadına şiddətə hayır!" "Kahr olsun erkək terroru" və s.

Özü də Türkiyədə kişilər çox vaxt boşandıqları qadınları öldürürlər. Yenə qısqanclıq zəminində. Sual çıxa bilər ki, adam boşandığı qadını niyə qısqansın ki. Amma bu, bir Şərq kişisi. Hər zaman qısqancdır, ölümünə qısqanar və deyər, "kimsəyə yar etməm səni".

Əvvəllər elə bir ritorika bizdə də vardı, maniakalcasına sevən biri öz nazlı yarını hədələyirdi ki, ya mənim olassan, ya da qara torpağın. Başqa variant yoxdur. Sanki bu 7 milyard əhalisi olan dünyada cəmi bir qız var və adam onu almasa, ömürlük bədbəxt olacaq.

Əlbəttə, bu, yumşaq desək, dəlilikdir. Adama deyərlər, rəhmətliyin oğlu, bir qadın səni istəmirsə, məsələ bitmişdir, özünü zorla sevdirəcəksənmi, rədd ol o tərəfə, get, anqır, tayını tap.

Son illərdə bu cür ailəiçi zorakılıqların, qətllərinin artmasının səbəbini psixoloq və sosioloqlar daha yaxşı bilər. Kriminalistlik iş deyil bu.

Çünki qatilə baxırsan ki, ömründə bir toyuq başı kəsməmiş adamdır, fağırın biridir, avtobusda yol gedəndə qəza vəziyyəti yaradaraq sərnişinləri qırmaq üzrə olan sürücüyə belə "ay qardaş, maşını ehtiyatlı sür" deyəcək qədər cəsarətə malik deyil, səhər işinə, axşam evinə gedən zəhmətkeşdir, amma gəlib arvadını baltalayıb.

Bu qətl barədə telekanallara danışan qonşu xalalar və ağsaqqallar adətən deyirlər: "Sakit ailəydi, kişi də sakit adam idi, heç gözləməzdik ki, belə bir hadisə olsun".

Demək, başqa səbəblər varmış. Sosioloqları dindirsən, deyəcəklər ki, qətlin gizli motivi kasıbçılıqdır, ailə maddi sıxıntı çəkməsə, belə hadisə baş verməzdi. Təbii ki, onlar xeyli dərəcədə haqlıdırlar. 15-20 illik ailələrdə kişilər arvadları daha çox maddi sıxıntılar və qarşı tərəfin tələbkarlığı, deyingənliyi üzündən öldürürlər.

Gənc ailələrdəki qətli şərh edən psixoloqlar isə ön yerə "qısqanclıq zəmini"ni qoyur, bu xüsusda intensivləşmiş ünsiyyət vasitələrinin (çatlaşma, mesajlaşma və s.) rolunu qeyd edirlər. Gerçəkdən də son vaxtlar gənc kişilər arvadlarını nəyə görə öldürdüklərini izah edərkən, "telefonunda yad kişinin mesajını gördüm" deyirlər.

Bu paraleldə belədir: "yad kişilərin mesajları" çox təhlükəlidir, qətlə səbəb ola bilir. "Yad qadınların mesajları" isə o qədər də qorxulu deyil, ən pis halda üzütüpürcəkli olmaqla və normalda yeyilməsi mümkün olmayan qida məmulatlarını yediyini etiraf etməklə məsələni bağlamaq mümkündür.

Amma çox paradoksaldır, 3-5 il əvvəl "Vağzalı" sədaları ilə, biri bir qəpiyə düşən "Allah xoşbəxt eləsin", "qoşa qarışınlar", "min budaq olsunlar" alqışları ilə ailə quran, toy günü bir-birinə sevgi dolu baxışlarla tamaşa edən cütlüklər necə olur ki, qatilə və qurbana çevrilirlər?

Bax, əsas məsələ, savadlı adamlar demişkən, bu metamorfoza prosesini öyrənməkdir.

---

**ADP sədri Sərdar Cəlaloğlu Azərbaycanda siyasi fəaliyyətin getdikcə sanki əhəmiyyətsiz fəaliyyət növünə çevrildiyi, müxalif siyasi liderlərin get-gedə siyasətdən kənar fəaliyyətlərə meylləndiyi, şəxsən özünün siyasətdən elmə transfer olduğu barədə deyilənlərə münasibət bildirdi.**

# "Ölənə qədər elmlə məşğul olacağam"

## Sərdar Cəlaloğlu siyasi fəaliyyətin çətinliyi, alimlərimiz, bəzi partiya sədrləri haqda səs-küylü açıqlamalar verdi

Sərdar Cəlaloğlu qeyd etdi ki, o və bir çox həmkarları siyasətə siyasətdən nəsə qazanmaq üçün yox, siyasətə nəsə vermək üçün qoşulublar. Həyatlarını riskə qoyub müstəqillik uğrunda mübarizəyə qalxıblar və əldə etdikləri nailiyyət əslində çox nəhəng bir nailiyyətdir: "Bizim siyasi fəaliyyətimiz dövründə Azərbaycanın müstəqilliyinə nail olmuşuq. Bu, bir siyasətçi üçün çox böyük nailiyyətdir. Nə qədər indiki hakimiyyətdəkilər desələr də ki, müstəqillik sanki göydən düşüb, əslində belə deyil. Onlar üçün göydəndüşmədirsə də, bizim üçün həyatımızı riskə qoymaq bahasına əldə edilmiş nailiyyətdir.

Şəxsən mən hər gün meydanlarda mübarizə apardığım dövrlərdə də elmi yaradıcılıqla məşğul olmuşam, kitablar yazmışam. Məsələn, "İlahi siyasət"adlı kitabım, 3500 səhifəlik "Tərəqqinin metofizikası"nı mən ADP meydanlarda olan vaxtlar yazmışam. Kitab yazıramsa, bu, o demək deyil ki, siyasi fəaliyyətlə məşğul deyiləm, siyasətdən gedirəm. Mənim elmi işimlə siyasi fəaliyyəti əlaqələndirmək əsassızdır. Mən "Mahiyyət" adlı kitabımı 1994-cü ildə yazmışam. Həmin kitaba görə mənə birbaşa elmlər doktoru adı elmi dərəcəsi vermək istəyirdilər. "İlahi siyasət" kitabını 1996-cı ildə başlayıb 2010-cu ildə bitirmişəm. Bu həmin dövrlər idi ki, siyasi fəaliyyətimin ən aktiv dövrləri idi. Rəsul Quliyev bizim partiyada olan dövrlərdə partiyanın ən aktiv meydan mübarizəsi dövrləri idi. Mən hətta o dövrlərdə də kitab yazmışam, elmi araşdırmalar aparmışam. Elmi fəaliyyət, kitab yazmaq mənim üçün adi bir həyat normasıdır. Bu işlə məşğulamsa, siyasətdən getməliyəm? İndiyə qədər 6 kitabım çap olunub, amma çapa hazır 10 min səhifəyə yaxın 6 dənə də kitabım var. Maliyyə tapsam bu saat həmin kitabları da çap elətdirərəm. Allah buyurur ki, ölənə qədər elmlə məşğul ol. Mən də bir müsəlman kimi buna əməl edirəm, ölənə qədər elmlə məşğul olacağam. Mən bayram günləri də, istirahət günləri də, bir sözlə, gecə-gündüz həm oxuyuram, həm yazıram. Mən bizim bəzi alimlərimiz kimi onun-bunun kitabından köçürmürəm. Mən fundamental şəkildə, bəşəriyyətin cavab verə bilmədiyi suallarla məşğul oluram və çox ciddi nailiyyətlər əldə eləmişəm. Hansısa partiya sədrləri siyasi tədbirləri olmadığı vaxtlarda oturub televizora baxırsa, sosial şəbəkələrdə qurdalanırsa, vaxtını boşuna keçirirsə, mən elmlə məşğul oluram. Amma mən siyasi fəaliyyətimdən ekonomiya edib elmlə məşğul olmuram. Mövcud şərtlər, imkanlar daxilində tam həcmdə siyasi işlə məşğul oluram. Amma siyasi fəaliyyətin lazımi effektinin olmadığı artıq mənimlə bağlı deyil, ölkədəki vəziyyətlə bağlıdır. Elmi fəaliyyətlə məşğul oluramsa, o demək deyil ki, siyasətdən gedirəm".



**ADP sədri siyasətçilərin fəaliyyətinin məhdudlaşmasının səbəblərinin olduğunu dedi. Onun sözlərinə görə, son illərdə hökumət Azərbaycanda çox ciddi şəkildə siyasi fəaliyyəti məhdudlaşdıran addımlar atıb. Birincisi, qanunvericilikdə sərt qaydalar, yüksək məbləğdə cərimələrin tətbiqi qaydaları tətbiq edilib. İkincisi, ölkədə ağır iqtisadi vəziyyətdir və bu vəziyyətdən müxalifət cinahındakı siyasətçilər ikiqat əziyyət çəkirlər. Bir çox müxalifətçilər hətta bu üzdən, yaşamaq üçün partiyalardan uzaqlaşmağa məcbur oldular:** "Müxalif partiyaların maliyyələşmə qaynaqlarını hökumət tam olaraq kəsib. Kim hansısa partiyaya maliyyə yardımları edirdisə, ya həbsxanaya atıldı, ya biznesdən məhrum edildi. Beynəlxalq təşkilatların Azərbaycandakı demokratik qüvvələrə münasibəti də 180 dərəcə dəyişdi son 10 ildə. Əvvəllər müxalif siyasi liderləri xaricə dəvət edirdilər, xaricdən bura gələn beynəlxalq təşkilatların və bir sıra dövlətlərin rəsmiləri müxalifətlə görüşürdü. İndi bu ənənə aradan qaldırılıb. Digər tərəfdən, demokratiyaya dəstək verən beynəlxalq təşkilatların Azərbaycanda nümayəndəlikləri bağlanıb. Yəni siz əvvəlki illərlə son illərdə müşahidə olunan vəziyyəti müqayisə etsəniz görəcəksiniz ki, beynəlxalq ictimaiyyətin əvvəlki diqqəti 180 faiz tərsinədir. Bu da bizim işimizdə əks olunur. Müxalifətə qarşı hökumətin iqtisadi sanksiyalar tətbiq etmədiyi dövrlərdə kifayət qədər aktiv olan müxalif siyasi qüvvələr indi blokada dövründə böyük əziyyət çəkirlər. Azərbaycan müxalifəti bu gün iqtisadi blokadaya alınıb. Türkiyədə partiya var ki, büdcəsi Azərbaycanın dövlət büdcəsi qədərdir. Dünyanın normal ölkələrində partiyaların pul problemi yoxdur. Azərbaycanda isə müxalif partiyalar, müxalif siyasətçilər pulsuzluqdan elementar toplantını təşkil etməkdə çətinlik çəkir. Təşkilati, təbliğati iş pul tələb edir. Müsavat Partiyasının başqanı və bir neçə müavinləri bugünlərdə Almaniyaya səfərə getdilər. Çox güman ki, onların səfər xərclərini xaricdəki müsavatçılar öz üzərlərinə götürüblər. İndi Azərbaycanın daxilində Arif Hacılı Lənkərana müsavatçıların konfransına getmək istəsin, görüm gedə biləcək? Bir tərəfdən maliyyə problemi, bir tərəfdən də hakimiyyət strukturlarının əngəl yaratması imkan verməyəcək. Bir partiya sədri üçün bir rayon təşkilatının konfransında iştirak etmək 200-300 manata başa gəlir. 60-70 rayonun hərəsində bir dəfə olanda böyük məbləğdə vəsait lazım olur. Həmin vəsait isə müxalif siyasətçilərdə yuxarıda qeyd etdiyim səbəblərdən yoxdur. Ona görə də bizim rayonlara da səfərimiz azalıb, siyasi tədbirlərimiz də azalıb. Eləcə də Azərbaycanda telekanallar bizim üzümüzə qapalıdır. Əvvəllər nisbətən ANS-də çıxışlarımıza az-çox imkanlar var idi, lakin son zamanlar ANS o biri telekanallardan betər olmuşdu, ona görə də yaxşı oldu bağlandı. Yəni bizim siyasi fəaliyyətimizi qura biləcəyimiz vasitələrin böyük əksəriyyəti bizim iradəmizdən asılı olmayaraq əlimizdən alınıb. Nəticədə də isə kimlərdəsə belə təsəvvür yaranır ki, Sərdar Cəlaloğlu, filankəs siyasətlə məşğul olmur, siyasətdən gedir".

**S.Cəlaloğlu vurğuladı ki, siyasətçilər olaraq onlar daha aktiv siyasi fəaliyyət, iş aparmaq istəyirlər, lakin yuxarıda sadaladığı problemlər imkan vermir.**

Etibar SEYİDAĞA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Həmsədrlərin fəaliyyəti Qarabağ münaqişəsini həll... etməməyə yönəlib

**Azərbaycanın Dağlıq Qarabağa ən yüksək status vəd etməsinə İrəvandan savaş ritorikası ilə cavab verilməsinə ABŞ, Rusiya və Fransanın sükutu yalnız bu anlamı verir; ekspertlər danışıqların davamını mənasız sayırlar...**

**Azərbaycan səfərindən sonra Ermənistana gedən ATƏT-in Minsk Qrupunun həmsədrlərini işğalçı ölkədə yenə də aqressiv bəyanatlarla qarşıladılar. İrəvanda həmsədrlərə deyiblər ki, Ermənistanın yeni hökumətinin proqramına "bir qarış da olsun torpaq" prinsipi salınıb, ona görə də ərazi güzəşti mümkünsüzdür.**






Bu, amerikalı həmsədr Ceyms Uorlikin Bakıda səsləndirdiyi "Azərbaycan əraziləri işğaldan azad olunmalıdır" bəyanatına aprel şokundan sonra himayədarlarının dəstəyi sayəsində kifayət qədər quduzlaşmış düşmənin operativ reaksiyası da sayıla bilər.

Hələ ki İrəvandan verilən cavaba ATƏT-in Minsk Qrupunun turist həmsədrlərinin hansı reaksiya verdiyi bəlli deyil. Əslində heç diplomatlardan sərt reaksiya gözləməyə də dəyməz. Çünki Ermənistanın azğınlığının səbəbkarı həm də həmsədrlərin özləridir. Çox uzağa getməyək, elə bu ilin əvvəlində AŞ PA-da Ermənistanın işğalçı siyasətinə qarşı hazırlanan qətnamənin qəbuluna məhz həmsədrlərin etirazı səbəb oldu. Əgər amerikalı həmsədr gerçəkdən də işğala son verilməsini istəyirdisə, o halda AŞ PA-ya ünvanlanmış etiraz müraciətinə qol qoymamalı idi. Sadəcə, diplomatlar "status-kvo"nun saxlanması şəraitində özlərinin fəaliyyətini davam etdirmək niyyətinə sadiqdirlər.

Əgər ayrı-ayrı vaxtlarda Ermənistan "təhlükəsizlik zolağı" adlandırdığı Dağlıq Qarabağın ətrafındakı əraziləri azad etməyi mümkün sayırdısa, artıq İrəvan bu mövqedən birdəfəlik imtina edib. Hətta Azərbaycan rəhbərliyi razılaşmanın əldə olunacağı təqdirdə Dağlıq Qarabağa muxtar respublika statusunun verilməsini mümkün sayandan sonra işğalçı ölkə sülh çağırışına savaş ritorikası ilə cavab verdi. Bu isə birmənalı şəkildə sülh prosesinə tüpürmək, vasitəçilərə qarşı saymazyana münasibətdir. Ancaq Azərbaycanın öz ərazilərində beynəlxalq hüquqla təsbit olunmuş haqlarını bərpa etməsinə hər cür əngəl yaradan həmsədr ölkələr Ermənistanın bu davranışlarına sükutla reaksiya verir.

****

Qəribəsi isə odur ki, belə bir şəraitdə də həmsədrlər danışıqlardan başqa yol görmədiklərini iddia edib prezidentlərin növbəti görüşünə hazırlıq işlərinin aparıldığını deyirlər. Oktyabrın 22-də amerikalı həmsədr "prezident İlham Əliyev erməni həmkarı cənab Sərkisyanla görüşməyə və bu istiqamətdəki məsələləri müzakirə etməyə hazır olduğunu deyib" söyləyib. Ancaq onu da vurğulayıb ki, hələlik prezidentlərin görüşünün nə vaxtı, nə də məkanı bəlli deyil. "Amma cənab Əliyev tez bir zamanda görüşə qatılmaq istəyini bildirib, biz bu istəyi alqışlayırıq. Bilirsiniz, prezidentlər arasındakı görüş asan təşkil olunan və asan keçirilən görüşlər deyil. Sadəcə, bu təmasların vacibliyi odur ki, iki prezident öz aralarında fikirlərini paylaşa bilirlər". Ancaq Uorlik bir məsələnin üstündən keçib. Əgər dediyi kimi, Azərbaycan prezidenti görüşün tez keçirilməsində maraqlıdırsa, məsələnin dinc yolla həlli prinsipinə sadiqdirsə, deməli, problem Ermənistan tərəfindədir. Lakin həmsədr bu məqama toxunmayaraq yenə də tərəflər arasında bərabərlik işarəsi qoymağa üstünlük verir.

Çox qəribədir ki, hazırda "aprel müharibəsi"ndə ölənlərin ailələrinə və yaralananlara maddi yardımın verilməməsini müzakirə edən erməni cəmiyyəti yenə də ərazilərin qaytarılması zərurətini etiraf etmək istəmir. Görünür, "İsgəndər" raketləri ermənilərin beynini kifayət qədər dumanlandırıb. "Lragir" saytı isə yazıb ki, aprel döyüşləri ölkədə sözün əsil mənasında şok effekti yaradıb və Ermənistan hələ də bu şokdan ayılmayıb. Elementar yardımdan məhrum edilən ermənilər bundan sonra Qarabağda döyüşmək istəyəcəklərmi, bax, bu sualın cavabı Ermənistanda da açıq qalır. Amma yenə də düşmən müharibə ritorikasına köklənib. Son günlər Azərbaycanı əsassız olaraq cəbhə xəttində təxribatlar törətməkdə ittiham edən düşmənin ənənəvi metoddan istifadə edərək, ardınca qəfil hücuma keçə biləcəyi də ehtimallardan biridir.

*****

Qarabağ separatçılarının lideri Bako Saakyan Xankəndində Ermənistanın yeni müdafiə naziri Viqen Sarkisyan, Ermənistan SQ-nin Baş Qərargah rəisi Movses Akopyan və Ermənistan prezidentinin məsləhətçisi, hərbi inspektor, general-polkovnik Mikael Arutyunyanla görüş keçirib. Qarabağ separatçıları qoşunlarının komandanı Levon Mnatsakanyanın da iştirak etdiyi görüşdə müdafiə sahəsinə aid olan bir sıra məsələlər müzakirə edilib.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov deyerler.org-a deyib ki, Azərbaycan ordusu hər an erməni tərəfindən qəfil hücumun olmasına hazır olmalıdır.** "Erməni tərəfi yeni ərazi iddiasındadır. Amma hələ ki yeni iddiaları ilə bağlı müəyyən qorxu hiss keçirdir. Çünki onlar aprel hadisələrində Azərbaycan ordusunun gücünü gördülər. Erməni tərəfi, sadəcə, fürsət gözləyir ki, öz təxribatlarını reallaşdırsınlar. Amma unudurlar ki, elə Azərbaycan tərəfi də məhz bu təxribat xarakterli əməliyyatları gözləyir"-polkovnik deyib. Bütün bunlar isə həmsədrlərin bölgəyə son səfəri ilə eyni vaxta təsadüf edir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Minsk Qrupu həmsədlərinin bölgəyə budəfəki səfəri də onların keçmiş səfərlərindən heç nə ilə fərqlənmədi:** "Əksinə, həmsədrlərin verdikləri açıqlamalar nikbinlik üçün əsas vermir. Deyirlər ki, torpaqların boşaldılması vacibdir, ancaq bu status müzakirələrlə paralel aparılmalıdır. Bu isə münaqişənin "paket həll" variantıdır ki, Azərbaycanın maraqlarına cavab vermir. Yəni torpaqların boşaldılmasını Dağlıq Qarabağın statusu ilə əlaqələndirirlər. Həmsədrlərin yeganə istəyi Azərbaycan və Ermənistan prezidentlərini ilin sonuna qədər görüşdürməkdir. Bununla həmsədrlər 2016-cı ildə fəaliyyətlərinə yekun vurmaq istəyirlər. Onlardan bizə nə? Yüksək maaş alan həmsədrlər öz müdirləri qarşısında hesabat verəcəklər deyə, Azərbaycan mövzusuz görüşə niyə razılaşmalıdır? Bu da alınmayacağı təqdirdə həmsədrlər iki ölkənin xarici işlər nazirlərini görüşdürəcəklər. Görünür, həmsədrlər bu görüşlər vasitəsilə hərbi toqquşma ehtimalını azaltmaq istəyirlər".

**Ancaq politoloq hesab edir ki, görüşlərdən nəticə yoxdursa, üstəlik də Ermənistan işğalçı siyasətini davam etdirirsə, hərbi toqquşma ehtimalı tarixini yalnız bir müddət uzatmaq olar, tam qarşısının alınması mümkün deyil:** "Bundan başqa, Ermənistan hakimiyyəti yenə açıqlama verib ki, torpaqları boşaltmaq fikirləri yoxdur. Bu açıqlama rəsmi İrəvanın mövqeyində zərrə qədər dəyişikliyin olmadığını göstərir. Üstəgəl, Ermənistan müdafiə sisteminə rəhbərlik edən şəxslər Dağlıq Qarabağa gəliblər. Bu səfərlərdən sonra adətən cəbhə bölgəsində təxribatların sayı artır".

**E.Şahinoğluna görə, ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə səfərlərinin yeganə məqsədi var: Azərbaycan və Ermənistan prezidentlərini ilin sonuna qədər görüşdürmək:** "Belə bir görüş ilk növbədə həmsədrlərə və Ermənistan hakimiyyətinə lazımdır. Həmsədrlərə ona görə lazımdır ki, ATƏT rəhbərliyi və öz nazirləri qarşısında hesabat versinlər ki, vəziyyət nəzarət altındadır. Yüksək maaş alan həmsədrlər ilin sonuna qədər hazırlayacaqları hesabatı prezidentlərin görüşü ilə tamamlamaq istəyirlər".

**E.Şahinoğlunun fikrincə, əslində görüş Ermənistan hakimiyyətinə də lazımdır:** "Ona görə lazımdır ki, status-kvonu uzada bilsinlər". Bu mənada politoloq qeyd etdi ki, ilin sonunadək prezidentlər səviyyəsində növbəti görüşün olub-olmayacağı sual altındadır: "Məncə, imitasiya xarakterli belə görüş bizim maraqlara cavab vermir". Ekspert xatırlatdı ki, Azərbaycan prezidenti İlham Əliyev imitasiya xarakterli görüşlərə ehtiyac olmadığını bir neçə dəfə vurğulayıb: "Bu isə o deməkdir ki, ilin sonuna qədər prezidentlərin görüşü sual altındadır. Danışıqlarda irəliləyiş yoxdursa, cəbhə bölgəsində atəşkəs intensiv pozulursa, işğal edilmiş ərazilərdə yenə hərbi təlimlər keçirilirsə, üstəgəl Ermənistan hakimiyyəti həmsədrlərin Bakıda müzakirə apardığı dəqiqələrdə "torpaqların boşaldılmasından söhbət belə gedə bilməz" deyirlərsə, bu prosesə "yox" deməyin yolu işğalçıya təzyiqin artırılmasından keçir".

"ATƏT-n Minsk Qrupunun həmsədrlərinin verdiyi bəyanatlar təəssüf ki, ancaq və ancaq öz dövlətlərinin, daha doğrusu, ən yaxşı halda xarici işlər nazirliklərinin mövqeyini əks etdirir. Yəni dövləti təmsil edən həmsədrlər bəyanatlar verməklə işlərini bitmiş hesab edirlər". Bu fikirləri isə **politoloq Arzu Nağıyevə** məxsusdur.

**Ekspert xatırlatdı ki, ATƏT-in Minsk Qrupu təkcə bu üç dövlətdən ibarət deyil:** "Azərbaycan, Ermənistan, Rusiya, Amerika, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç qrupun üzvləridir. Bu dövlətlərin münaqişənin həlli ilə bağlı hərəsinin öz mövqeyi var. Ayrı-ayrılıqda hər biri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Təəssüf ki, ortaya dəqiq və yetkin bir fikir qoyulmur. Baxmayaraq ki, BMT-nin patronajı altında fəaliyyət göstərirlər, verilən bəyanatlar deklorativ xarakter daşıyır və heç bir icra mexanizmi yoxdur".

**A.Nağıyevin sözlərinə görə, ABŞ təmsilçisi, həmsədr Ceyms Uorlik başqa cür bəyanat verə də bilməz:** "Çünki onun təmsil etdiyi dövlət Azərbaycanın ərazi bütövlüyünü qəbul edir və öz sərhədləri çərçivəsində tanıyır. Məlumdur ki, iki həftədən sonra ABŞ-da seçkilər keçiriləcək və Obama komandası fevralda istefaya getməlidir. Uorlik də bu prizmadan çıxış edərək ABŞ iqtidarının özlərindən miras kimi qoyub getdiyi ən uzun ömürlü münaqişə ocağının söndürülməməsinin günahlarını üzərlərinə götürməməyə çalışır. Təbii ki, ermənilər həmişə olduğu kimi, öz siyasətlərini yeridirlər. Buna nə Rusiya, nə də Fransa reaksiya verir. Çünki həmin dövlətlər də dolayı olaraq ermənilərə dəstək göstərir. Belə bir vəziyyətdə təbii ki, Azərbaycan rəhbərliyinin ermənilərlə görüşünün mənası olmayacaq, çünki biz artıq yetərincə öz sözümüzü deyirik və hətta cənab İlham Əliyev son müsahibəsində də bunu bir daha qeyd etdi. Diktə edən, şərt irəli sürən, bütün beynəlxalq hüquq və normalara riayət edən tərəf olaraq Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü qorumağa və bərpa eləməyə qadirdir. Sadəcə olaraq, bunun sülh yoluna daha çox üstünlük verir və bunun da öz səbəbləri var. Lakin münaqişənin həllinin hərbi yolu da istisna deyil. Bunu da istər ATƏT, istərsə də digər beynəlxalq qurumlar dərk etməlidir. Çünki bu yol seçilsə, artıq həmin qurumlar heç nə edə bilməyəcəklər".

****

**Qarabağ tənzimlənməsinin bu yolla mümkünsüzlüyünü Vaşinqtondakı "Qulf Steyt Analitiks"in məsləhətçisi, siyasi şərhçi Teodor Karasikin son açıqlamaları da təsdiqləyir. Ekspert axar.az-a deyib ki, "Rusiyanın Ermənistana sonuncu dəfə milyardlıq silahlar verməsini Azərbaycan-Rusiya mövcud münasibətlərinə adekvat hesab edirsinizmi" sualına cavabında ekspert bunları deyib:** "Rusiya Azərbaycan və Ermənistanı qarşı-qarşıya qoymaqla Qafqazdakı ənənəvi oyununu oynayır. Kreml Ermənistana milyard dollarlıq silahlar və digər dəstəklər verməklə dərin əlaqələr qurub və ondan Rusiyanın peyk ölkəsi kimi istifadə edir".

Ancaq təəccüblüsü odur ki, az qala bütün dünyada maraqları toqquşan ABŞ və Rusiya Qarabağ məsələsində faktiki olaraq eyni mövqedən çıxış edir. Ən azı, hər iki ölkənin Ermənistanı işğalçı statusunda görməməsi bunun sübutudur. Bu isə onu deməyə əsas verir ki, həmsədr ölkələr və onların təmsilçiləri münaqişənin həllindənsə, onun uzadılması üçün çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 226 (6557) 25 oktyabr 2016

**"Təkcə Akif Çovdarovun yox, onun qohum-əqrəbasının da əmlakına həbs qoyulub. Ancaq belə bir sübut yoxdur ki, onlara məxsus olan əmlakı Akif Çovdarov və ya ailə üzvləri deyildiyi kimi, hədə-qorxu yolu ilə əldə etdiyi pulla qazanıb və ya evini bununla tikib". Bunu musavat.com-a açıqlamasında ləğv edilmiş MTN-in həbsdə olan generalı Akif Çovdarovun vəkili Kamandar Nəsibov deyib. Vəkilin sözlərindən aydın olub ki, həbsdəki generalın bütün varidatına həbs qoyulub. Hətta Çovdarovun nəvələrinin planşetləri və oyun diskləri belə müstəntiqlər tərəfindən müsadirə edilib. Çərxi-fələyin tərsinə dövran etməsi nəticəsində Çovdarovun ailə üzvlərinə - qızlarının, oğlunun, kürəkənlərinin və həyat yoldaşının adına olan əmlaklara həbs qoyulub. Həbs qoyulan əmlaklar arasında Nizami rayonunda yerləşən "vosmoy bazarı" da var.**

# Məhkəmə "8-ci kilometr bazarı"nın üzərinə həbs qoydu - ticarətçi bazardan çıxarılır?

## Əyyub Kərim: "Bura Azərbaycandır..."

Bu həmin o bazardır ki, Eldar Mahmudovun "vuran əli" hesab olunan Akif Çovdarov və sabiq nazirin müavini Hilal Əsədov tərəfindən hələ 2005-ci ildə sahiblərindən - Səfərov qardaşlarından alınıb. Bir müddət əvvəl "Yeni Müsavat" bazarın Səfərovlardan alınmasının detallarını təqdim etmişdi. "MTN generallarının "vosmoy bazarı" əməliyyatı"nın yeni şok detalları" http://musavat.com/mobile/olke/mtn-generallari-nin-vosmoy-bazari-emeliyyatinin-yeni-shok-detallari-qarshi-terefden-ilginc-achiqlamalar_384679.html sərlövhəli yazıda bu haqda geniş məlumat verilib deyə, qısa olaraq qeyd edirik ki, bazar Səfərovlardan zorla alınıb və iki hissəyə bölünüb. Bazarın 50 faizi Akif Çovdarovun qızının adına, yerdə qalan 50 faizi isə Hilal Əsədovun qayınatasının adına rəsmiləşdirilib. İndi A.Çovdarovun vəkilinin açıqlamasından məlum olur ki, bazarın üzərinə həbs qoyulub.

Bazarın üzərinə həbs qoyulması orada çalışan xırda ticarətçilərin gələcək işgüzar taleyini şübhə altına alırmı? Onlar məhkəmə qərarından asılı olaraq iş yerlərini itirə bilərlərmi? Bazarın üzərinə həbs qoyulması bazarda işin dayandırılması deməkdirmi? Məhkəmə qərar versə ki, bazar Akif Çovdarovun qızından və Hilal Əsədovun qayınatasından alınıb qanuni sahiblərinə keçsin, bu halda xırda ticarətçilərin durumu necə olacaq?

**Bu suallarla hüquqşünas, "Femida" qəzetinin baş redaktoru Əyyub Kərimə müraciət etdik. Hüquqşünas dedi ki, ticarət mərkəzinin üzərinə həbsin qoyulması orada çalışan xırda ticarətçilərə gələcəkdə hər hansı bir problem yaratmamalıdır. Amma məsələnin bu tərəfi də var ki, ticarət mərkəzinin sahiblərinə qaytarılması hazırkı sahiblərlə bağlanmış müqavilələrin yenilənməsini zəruri edir:** "Orada xırda ticarətçilərin böyük əksəriyyəti piştaxtaları kirayələyib alver edir. Yəni bu adamlar bazarın hazırkı sahibləri ilə müqavilə bağlayıb alver edirlər.



Ona görə "8-ci kilometr bazarı"nın üzərinə həbsin qoyulması orada ticarətin ümumiyyətlə dayandırılmasına səbəb ola bilməz. Ancaq gələcəkdə məhkəmənin qərarı ilə bazar əvvəlki sahiblərinə qaytarılsa, sözsüz ki, yeni sahib orada ticarətlə məşğul olan insanlarla yeni icarə müqaviləsi bağlaya bilər. Amma əvvəlki müqavilələrin müddəti bitənə qədər gözləyə də bilərlər".

**Hüquqşünas xırda ticarətçilərin işinə azərbaycansayağı müdaxilələrin ola biləcəyini də istisna etməyib:** "Bura Azərbaycandır, burada hüquqi müstəvidə konkret nəsə söyləmək, proqnoz vermək çox çətindir. Çünki bu ölkədə çox vaxt qanunun şahlığı az ömürlü olur".

**V.Əyyub deyir ki, məhkəmə bazarın sahiblərindən alınmasını təsdiqləyərsə, bu halda sahiblərinə əllərindən çıxmış faydaya görə kompensasiya ödənilə biləcəyini də bildirib:** "Məhkəmə hökm çıxarsa ki, Çovdarovla Hilal Əsədov bazarı sahiblərindən zorla alıblar, bu halda bazarın əsl sahibləri onlardan kompensasiya tələb edə bilərlər. Bazarı 11 il işlədib pul qazanıblar, həmin illər ərzində qazanılan pulları hər iki general-dan müştərək qaydada tutub bazarın qanuni sahiblərinə verməlidirlər. Bunun üçün bazarın sahibləri məhkəməyə mülki iddia ilə müraciət etməlidirlər".

Qeyd edək ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

❑ **E.HÜSEYNOV**

# İlin sonuna doğru bizi nə gözləyir?

## Dekabrın sonlarında qiymətlərdə daha ciddi artımlar müşahidə oluna, neft də bahalaşa bilər...

**2016-cı ilin başa çatmasına 2 aydan bir qədər artıq zaman qalır. Adətən ilin sonu iqtisadi baxımdan təlatümlü keçir. Yeni ilin gəlişi ilə əlaqədar qiymətlər qalxır, manatın məzənnəsi ilə bağlı həyəcan yaşanır, neftin qiymətində kəskin dəyişiklik baş verir. Həmçinin qış ayları əhali üçün də maddi baxımdan çətin keçir? Bəs görəsən, bu il ilin sonuna doğru bizi nələr gözləyir?**



"Yeni Müsavat"ın sualını cavablandıran **iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, son iki ay olduqca gərgin keçəcək.

Rəşad Həsənovun sözlərinə görə, ilin sonuna doğru manatın dəyərsizləşməsi prosesi davam edəcək: "İlin sonuna təxminən iki ay vaxt qalıb. Bu müddət ərzində manat bu günlə müqayisədə təxminən 4-5 faiz zəifləyəcək. İlin sonunda rəsmi məzənnə təxminən dollara qarşı 1.70 - 1.73 arasında qərarlaşacaq. İlin əvvəlində ola bilsin ki, daha sürətli dəyərsizləşmə prosesi baş versin. Qara bazarda isə bu göstərici 1.85-1.90-a qədər arta bilər".

**İqtisadçı ekspert son iki ayın neftin qiyməti ilə bağlı optimist keçəcəyini vurğuladı:** "Neftin qiyməti ilə bağlı hazırda dünya bazarlarında optimist əhval-ruhiyyə müşahidə olunur. Bu, xüsusilə də OPEK-in Əlcəzair görüşündə qeyri-rəsmi formada əldə olunmuş razılıqdan qaynaqlanan bir optimizmdir. Hazırda birjalarda "Brent" markalı neftin qiyməti 52 dollara satılır. Noyabr ayının 30-da OPEK-in növbəti toplantısı gözlənilir ki, bu zaman Əlcəzair görüşündə əldə olunmuş razılıqların rəsmi olaraq sənəd halına və müqavilə şəklinə salınması gözlənilir. Bu dövrə qədər neftin qiymətində təxminən bir barel üçün 50-57 dollar arasında dəyişmələr müşahidə oluna bilər. OPEK-in əldə edəcəyi qərardan sonra isə bu qiymətlərin hansı istiqamətdə irəliləməsi məlum olacaq. OPEK razılıq əldə edərsə, bu zaman qiymətlər müvəqqəti dövrdə 65 dollara qədər bahalaşa bilər. Lakin ondan sonrakı ABŞ istehsalı olan neftin gəlirliliyi artacaq, bu isə neft istehsalını sürətləndirməklə bu ölkənin istehsal həcmini qısa müddətə artıra bilər. Bu da növbəti dövrlərdə qiymətlərin yenidən ucuzlaşmasına səbəb ola bilər. İlin sonuna qədər OPEK razılıq əldə edərsə, dekabr ayının sonlarında böyük ehtimalla neftin qiyməti bir barel üçün 55-60 dollar arasında olacaq. OPEK-in görüşündə hər hansı razılıq olmasa, bu qiymət 40-45 dollara qədər ucuzlaşa bilər".

**Rəşad Həsənov həmçinin ərzaq məhsullarında müşahidə olunan qiymət artımına da toxunaraq, prosesin davam edəcəyini bildirdi:** "Bildiyiniz kimi, ölkədə ərzaq bazarında məhsulların böyük bir qismi idxal məhsullarıdır. Bu məhsullar ölkəyə xarici valyuta ilə gətirildiyi üçün ilin sonunadək xarici valyutanın bahalaşacağını nəzərə alsaq, qiymətlərin artacağını deyə bilərik. Kənd təsərrüfatı məhsullarına gəlincə, qış mövsümünün gəlməsini nəzərə alsaq, qiymətlərin artması gözləniləndir. Xüsusilə də dekabrın sonlarında bayramla əlaqədar olaraq qiymətlərdə daha ciddi artımlar müşahidə oluna bilər. Ümumi qiymətlərin bahalaşması müşahidə olunacaq. Lakin bu bahalaşmanı müəyyən qədər əngəlləyən addımlardan biri əhalinin istehlak gücünün gün-gündən azalmasıdır. Bu, prosesin nisbətən aşağı templi olmasına səbəb ola bilər".

❑ **Nərgiz LİFTİYEVA**

## Bakı Şəhər Təhsil İdarəsi valideynlərin şikayətini dinləyəcək

**Bakı Şəhər Təhsil İdarəsi səyyar qəbula başlayır. İdarədən virtualaz.org saytına verilən məlumatda deyilir ki, qəbul müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli iş aparmaq məqsədlərilə keçirilir.**

İlk olaraq oktyabrın 28-də Nizami və Nərimanov rayonlarında valideynlərin şikayət və təkliflərinə baxılacaq.

"Səyyar qəbulda idarə rəhbərliyi, eyni zamanda struktur bölmələrin direktorları iştirak edəcək. Müəllim və valideynləri narahat edən məsələlər araşdırılacaq. Bundan sonra nəticələr haqqında məlumatlar veriləcək", - idarədən deyiblər.

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016

**Payız, qış fəsli girəndən etibarən dünya insanını ən çox təəccübləndirən kəskin soyuq havada qalın paltara bürünənlər yox, soyuq, buzlu suda çimənlər, dənizə girənlər olur. Hər biri bu seçimi barədə videolar çəkdirir, onu yayır və bunu sağlam həyat tərzinin atributu adlandırırlar.**

# Hava soyudu - soyuq suda çimənlərin mövsümü də başladı

## Həkimlər xəbərdarlıq edir - heç kimi buna məcbur etmək olmaz, əks halda…





Azərbaycanlılar arasında da bunu edənlər az deyil. Hətta az-çox tanınan adamlar da soyuqda dənizdə çimirlər. Məsələn, bu yaxınlarda Aydınlar Partiyasının funksioneri Qorxmaz İbrahimli də sosial şəbəkədə soyuq havada dənizdə üzdüyünü əks etdirən fotolar paylaşıb.

**Bəs tibb elmi nə deyir, hər adam qışın soyuğunda dənizə girə bilərmi?**

Alimlər müəyyən ediblər ki, ümumiyyətlə, dənizə girmək hər mövsüm gerçəkləşə biləcək bir şey deyil. Təbii ki, bu qayda hamı üçün keçərli deyil. Çünki hər zaman dənizə girə bilməyi vərdiş halına gətirə bilmiş insanlar mövcuddur. Yay aylarında hamı rahatlıqla dənizə girdiyi halda, qışda bunu etmək cəsarət istəyir. Yaz aylarında dənizin istiliyi fərqli ola bildiyi halda, payızda dəniz suyu daha isti ola bilir.

Qeyri-isti fəsillərdə dənizə girmə məsələsində israrçı olan insanların soyuğa qarşı dözümlü olması vacibdir. Bundan başqa, qışda dənizə girəcək insanların başda ürək xəstəlikləri olmaqla, sağlamlıq problemlərinin də olmaması lazımdır.

Qışda dəniz suyunun aşağı temperaturda olması bədənin fərqli reaksiyalar verməsinə səbəb ola bilər. Orqanizmin öncə öyrəşdirilərək soyudulması və ardınca bu sürəcin yavaş bir şəkildə hiss edilməsi lazımdır. Qış aylarında suyun temperaturunda bədənin şoka girməsi ani verilən reaksiya olduğundan, sağlamlıq problemi olan insanların belə bir seçim etməməsi lazımdır. Qış ayında dənizə girərkən istifadə olunacaq geyim isə qapalı üzücü geyimləridir. Bu qiyafələrin bədəni qoruması və istilikləri mühafizə etməsi hər zaman seçim səbəbi olmaqdadır. Dənizə girilərkən isə öncədən bədən su ilə isladılmalı və suya girmədən yavaş və özünüzdən arxayın bir şəkildə hoppanmağınız lazımdır. Əgər bunu hobbi olaraq edirsizsə, yarım saatdan artıq suda dayanmamaq lazımdır. Professional olaraq dənizdə üzmək və yarışlarda olmaq istəyənlər üçünsə bədənin öncədən isidilməsi lazımdır.

**Buzlu sudan öncə adaptasiya - amma isti suda yox...**

Amma internetdə bu mənzərələri görən heç də hər kəs buzlu suya girə bilməz. Ürək-damar xəstələri, epilepsiya, beyin sklerozu, şəkərli diabet, tənəffüs yolu xəstəlikləri *(vərəm, ağciyərin sətəlcəmi, bronxial astma)* olan şəxslərin qışda suya girməsi məsləhət deyil.

Bundan başqa, soyuq hava deyib, heç də hər yerdə dənizə girmək olmaz. Bunun üçün uğurlu yer tapmaq lazımdır. Yəni daha öncədən bu yer yoxlanılmalıdır. Amma insanlar bəzən qışın oğlan çağında, yerdə qar qalın olanda buzlu suya girməyə cəhd edirlər. Bu zaman isə əsas şərt odur ki, buzlu su 1,8 metrdən dərin olmasın.

Buzlu suya girmədən öncə geyim məsələsində xüsusi həssaslıq nümayiş etdirmək lazımdır. Belə ki, suya qədər gedən yolda ya rezin ayaqqabı, ya da yun corab geyinmək lazımdır. Çünki suya öyrəşənə qədər ayaqları birdən-birə ağır yük altında qoymaq olmaz. Bundan başqa, çayın kənarında yun hamam xalatı, isinmiş dəsmal da saxlamaq məsləhətdir.

Buzlu suya girmədən öncə az da olsa isinmək məsləhətdir. Amma çox da isti suda yox. Əks halda, soyuq suya adaptasiya mümkün deyil. Bundan başqa, suya baş vurmaq istəyən adam isinmək üçün öncədən qısa gimnastik hərəkətlər etməlidir. Bədən isti, amma tərsiz olmalıdır.

Xristian dini mərasimlərində insanlar buzlu suya baş vururlar. Həkimlər deyir ki, heç də hamı buzlu suya baş vurmalı deyil, ancaq bədənini orda imtahandan keçirə bilər. Neyçün ki, yaş saçla qarlı havada mənzilbaşına sağlam, problemsiz çatmaq az qala mümkün deyil. Sudan çıxan kimi saçları qurutmaq isə praktik baxımdan imkansız görünür.

Ən maraqlı məqam isə eyforiya ilə bağlı olandır. Müşahidəçilər deyir ki, buzlu suya girən bir çox insanlar ilk saniyələrdə eyforiyaya qapılır. Sonu gəlməz sevinc hissi yaşayır, bu da onları suda 4-5 dəqiqə qalmağa vadar edir. Bu qəfil sevinc hissi isə Allahın bir hədiyyəsi deyil, sadəcə, bədəndə soyuğun təsiri ilə gedən kimyəvi proseslərin nəticəsidir. Endorfinlərin təhriki ilə suda çox qalmaq isə sağlamlıq üçün birbaşa riskdir.

**Kimisə buna məcbur etməyin, əks halda, ölüm qaçılmazdır**

Soyuq su ancaq fiziki fəsadla nəticələnmir. Rusiya Səhiyyə Nazirliyinin apardığı araşdırmalara görə, hətta suya girməmiş qorxudan dünyasını dəyişənlər də olur. Suya girib, onun soyuqluğunu bədənində hiss etmədən qorxu impulsu ürəyə ötürülür. Bir çox hallarda bu, insult, infarkt keçirmiş insanlar üçün ciddi fəsadlar törədir.

Ona görə də ilkin məsləhət belədir - heç kimi buzlu suya girməyə məcbur etməyin. İnsan psixoloji cəhətdən hazır olmamış bu addımı atmamalıdır. Digər tərəfdən, tərəddüd edənlər üçün də suda qalma zamanı çox qısa olmalıdır. Suya girdin və çıxdın. İlk dəfə üçün bu, bəsdir. Üzməyə, digərləri ilə rəqabət aparmağa əsla ehtiyac yoxdur.

Bu mənada idmançıların işi yaxşıdır. Onlar suya daxil olan kimi beyinlərinə də siqnal ötürülür. Sən soyuq suya girmisən, dərhal isinməlisən. Dərhal mərkəzdən orqanizmin digər hissələrinə qan axını güclənir, adrenalin yüksəlir, soyuqdan qorunma instinkti sürətlənir. Bu zaman da bədəndən dərhal buxar çıxır.

O ki qaldı çimmədən əvvəl və sonra yeyilib-içilənlərə, bunuçün də özəl məsləhətlər var. Sudan çıxanlar mütləq isti çay, kofe ya da şorba içməlidir. Bunları çimməyə gedərkən termosda aparmaq məsləhətdir. Və hər şeydən əvvəl insan belə suya girmədən əvvəl öz orqanizminə güvənməlidir. Əgər buzlu suya girmək sizdə dəhşət hissi yaradırsa, bir daha düşünməyə dəyər - görəsən, bunu edimmi?

Yox, əgər kimsə orqanizminə həddən artıq güvənib, buzlu suya girirsə və ardınca ciddi fəsadlar yaşayırsa, bunun üçün də çıxış yolları var. Məsələn, tutaq ki, soyuq suda donanların dərhal bədəni göyərir, nitqi tutulur, bədəni hərəkətsizləşir. Bu, onun soyuq su imtahanından çıxmadığına işarədir. Təcili yardım maşını gələnə kimi xəstənin bədənini qurutmaq, quru və isidilmiş paltar geydirmək, bədənini masaj eləmək lazımdır. Bütün bunlardan sonra azca da olsa özünə gələn xəstəyə isə mütləq isti çay vermək lazımdır. Yox, bunlar fayda vermirsə, o zaman həkim müdaxiləsi şərtdir.

**❑ Sevinc TELMANQIZI**

# Uşaqların gözü önündə kəsilən heyvanlar...

## Bakıda qəssabxana problemi; işgəncə ilə kəsilən heyvanların əti sağlamlığa zərər vurur

**Biz millət olaraq ətsevənik. İnsanlarımız əsasən təzə kəsilmiş ətə önəm verirlər. Deməli olar ki, bütün məhəllələrdə "Təzə ət", "Halal ət" plakatını görmək mümkündür.**



Satıcılar ətin təzəliyini əyani şəkildə göstərmək üçün heyvanı yaşayış yerində kəsməkdən çəkinmirlər. Müvafiq dövlət qurumları isə bu cür halların qarşısını almaqda aciz qalıb. Qəssab yolun qırağında heyvanı bağlayır, səhər tezdən isə onu hamının gözü önündə kəsir. Beləcə ətrafı qan bürüyür.

Hər gün səhər uşaqlar da məktəbə gedərkən buradakı vəziyyətin şahidi olurlar. Bu mənzərənin də onlara necə təsir etdiyini yəqin ki, deməyə ehtiyac yoxdur. Artıq insanlar uşaqları ilə birlikdə həmin yerlərdən keçmək istəmirlər. Böyük insanların belə mənzərəyə şahid olması ağırdır, o ki qaldı uşaqlar...

Heyvanların kəsilməsinin istər dini, istərsə də tibbi baxımdan bəzi riayət edilməsi qaydaları var. Ən çox müzakirə edilən məsələ isə bir heyvanın digər kəsiləcək heyvanın gözü önündə kəsilməsidir.

İddia edilir ki, iribuynuzlu heyvan kəsilən zaman digər heyvanın bunu görməməsi lazımdır. Çünki bu zaman həmin heyvanda qorxu hormonları əmələ gəlir. Bu da sağlıq üçün zərərlidir. Belə olan halda, laxtalanmış qan ətdə qalır, adrenalin, qorxu hormonları və digər fermentlər istehlakçının masasına gəlir. Bu da insan səhhətinə ciddi zərər vurur. İslama görə, bir heyvanın digərinin gözü qarşısında kəsilməsi, hətta gözü qarşısında bıçaq itilənməsi məkruh sayılır.

Musavat.com-un əməkdaşı məsələyə aydınlıq gətirmək üçün ekspertlərlə əlaqə saxlayıb.

**İlahiyyatçı ekspert Kənan Rövşənoğlu:** "İslam dinində vacib, bəyənilən və bəyənilməyən hökmlər var. Vacib odur ki, heyvan kəsilərkən üzü qibləyə tutulsun, iti əşya ilə kəsilsin, kəsilərkən "bismillah" deyilsin. Müstəhəb əməl isə heyvanın qorxudulmaması, su verilməsi, kəsilərkən işgəncə verilməməsi, bıçağın iti olması, gözü önündə digər heyvanın kəsilməməsidir. Din deyir ki, heyvan qorxudulmasın, incidilməsin. Bu, tibbdə indi ortaya çıxarılsa da, dində daha öncədən qeyd edilib. Müstəhəb sayılan, yəni bəyənilən hərəkətləri qəsdən pozmaq qəbul edilmir. Əgər həmin anda başqa çarə yoxdursa, şərait imkan vermirsə, buna məcbur qalınıbsa, o heç. Amma indiki dövrdə ət dükanı çalışdıranlar, qəssablar buna mütləq əməl etməlidirlər. Məsələ təkcə heyvanın digərinin gözü önündə kəsilməsi də deyil. Qəssab dükanının kəsim yeri ayrı olmalıdır. Göz önündə heyvan kəsilə bilməz. Küçədə heyvan kəsirlər. Həmin anı görən uşaqlara bu, pis təsir edir. Onlarda psixoloji problemlər ola bilər. Belə vəziyyətə nəzarəti hökumət orqanları etməlidir".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla:** "Kəsim zamanı heyvan qorxudularsa, onun qanında bununla əlaqədar hormonal dəyişikliklər baş verə bilər. Bu zaman əzələlərdə və digər orqanlarda stress hormonları çoxalır. Qorxu ilə əlaqədar qanda baş verən hormonal dəyişikliklər istehsal olunan ətin keyfiyyət parametrlərinə neqativ təsir edə və bu da insan üçün zərərli ola bilər. Amma bundan daha çox kəsim yerlərinin gigiyenik şəraiti, heyvanların sağlamlığı önəmlidir. Baytarlıq idarəsi çox vaxt dəqiq yoxlamadan heyvana möhür vurur. Statistika göstərir ki, insanlarda bir çox xəstəliklərin səbəbi düzgün yoxlanmayan, xəstəlik daşıyan heyvanlara görədir. Bütün bunlara ciddi nəzarət edilməlidir. Ən ciddi xəstəliklər bu yolla əmələ gəlir".

**❑ Məhəmməd TÜRKMƏN**
**❑ Foto müəllifindir**

# Prokuror İŞİD-ə qoşulanlara ağır cəza istədi



**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rauf Əliyevin sədrliyi ilə İŞİD-in tərkibində vuruşmaqda təqsirləndirilən Elbrus Əzizov, Namiq Quliyev, Rasim Bədəlov, İlahi Əzizov, Babək Şirinov, Elman Mirzəbəyov və Əfqan Şamxalovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

«Trend»in məlumatına görə, prosesdə məhkəmə istintaqı yekunlaşıb və dövlət ittihamçısı təqsirləndirilən şəxslərə cəza istəyib. Prokuror E.Əzizov, İ.Əzizov və B.Şirinovun hər birinin 15 il, R.Bədəlov və N.Bədəlovun 13 il, E.Mirzəbəyovun 8 il, Ə.Şamxalovun isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Sonra təqsirləndirilən şəxslərin vəkilləri müdafiə çıxışı edib. Proses oktyabrın 31-də davam etdiriləcək.

Qeyd edək ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları - Zaur Heydərov, Elbrus Əzizov, Namiq Quliyev, Rasim Bədəlov, İlahi Əzizov, Babək Şirinov, Elman Mirzəbəyov, Əfqan Şamxalov, Vaqif Talıbov, Rufan Ağcabəyov və Elşən İsmayılovu şübhəli şəxs qismində tutulublar.

Faktlarla bağlı MTN İstintaq Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 12.1, 279.1-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanılıb. Heydərov Zaur Naib oğlu, Əzizov Elbrus Nurməmməd oğlu, Talıbov Vaqif Musa oğlu, Ağcabəyov Rufan Şərəfəddin oğlu və İsmayılov Elşən Aydın oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs qətimkan tədbirləri seçilib. Müəyyən edilib ki, Z.Heydərov, E.Əzizov, V.Talıbov, R.Ağcabəyov və E.İsmayılov 2013-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən İŞİD, "Cəbhətül-Nusra" və "Cundu Şam" terrorçu təşkilatlarının fəaliyyətində iştirak ediblər.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**




## 33 yaşlı kişi Bakıda hoteldə damarlarını kəsdi

**Bakıdakı hotellərdən birində 33 yaşlı kişi öz qolunu doğrayıb. "Report"un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, hadisə Ağa Nemətulla küçəsində yerləşən dördulduzlu "Premier Expo" hotelində qeydə alınıb.**

Hotelin hamam otağında 1983-cü il təvəllüdlü Namiq Əliyev qol damarlarını ülgüclə kəsərək intihar etməyə cəhd göstərib.

Çoxlu qan itirən yaralını otağa gəlmiş xadimə aşkar edib.

O, 1 saylı Şəhər Kliniki Tibbi Mərkəzə yerləşdirilib, vəziyyəti orta-ağırdır.

N.Əliyevin intihara cəhd etməsinin səbəbləri araşdırılır.

## Bu ay 18 nəfər dəm qazından zəhərlənib

**Bu aydan Azərbaycanda tibb müəssisələrinə dəm qazından zəhərlənmə ilə əlaqədar müraciətlər daxil olmağa başlayıb. Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, baş toksikoloq Azər Maqsudov APA-ya açıqlamasında deyib ki, oktyabr ayı ərzində dəm qazı zəhərlənməsi diaqnozu ilə Klinik Tibbi Mərkəzə 18 nəfər müraciət edib:**

"Onlardan 11 nəfəri xəstəxanaya qəbul olunub, 7 nəfəri məsləhətdən sonra evə buraxılıb. Dəm qazı ilə bağlı müraciət edənlərin 2-si uşaqdır. Ağır xəstə və ölüm halı qeydə alınmayıb".

A. Maqsudov qeyd edib ki, bu günə kimi göbələkdən zəhərlənmə ilə bağlı 7 nəfər xəstəxanaya müraciət edib, onlardan 5-i qəbul olunub. Bu şəxslərin hamısı müayinə olunaraq evə buraxılıb. Sirkə turşusundan zəhərlənmə ilə bağlı xəstəxanaya yerləşdirilən 2 nəfər də müayinə olunaraq ev yazılıb.

## Rayonlarda sulu qar və qar yağacaq

### Qeyri-sabit hava şəraiti ayın 29-na kimi davam edəcək

**Soyuq və yağmurlu hava şəraiti oktyabrın 29-na kimi davam edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova rayonlarda sulu qar və qar yağacağını dedi: "Qeyri-sabit hava şəraiti ayın 29-na kimi davam edəcək. Arabir yağış yağacaq, bəzi yerlərdə intensiv olacaq. Dağlıq və dağətəyi rayonlarda isə sulu qara və qara keçəcəyi gözlənilir. Hava şəraiti oktyabrın 27-si gündüz saatlarında mülayim, əsasən yağmursuz keçəcək. Ayın 25-26-sı isə qeyri-sabit hava şəraiti davam edəcək".**

Qışın deyildiyi kimi sərt keçib-keçməyəcəyinə gəlincə isə G.Məmmədova bu haqda danışmağın hələ tez olduğunu dedi: "Biz qışın necə keçəcəyi haqda proqnozları dekabrın əvvəllərində verəcəyik. Bunu təxmin etmək hələ tezdir. Çox adam deyir ki, hava soyuqdur, qış sərt keçəcək. Qışın hava proqnozu haqqında bir çox analizlər aparılacaq, konfranslar keçiriləcək. Ondan sonra bu barədə məlumat veriləcək. Qışın sərt keçəcəyini demək hələ çox tezdir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 236 (6557) 25 oktyabr 2016



# Dünya alternativ enerjinin bir addımlığında; bəs Azərbaycan?

## İlham Şaban: "Əgər hökumət uzaqgörənlik edib 5 il qabağı görmürsə, bu sahə inkişaf edə bilməz"

**Alternativ enerji bu gün bütün dünyanın diqqətində olan məsələdir. Bununla dünyada gücü, siyasi münasibətləri müəyyənləşdirən neft və qaz belə zamanla arxa plana keçə və dünya bazarındakı mövqeyini itirə bilər. Artıq inkişaf etmiş ölkələrin əksəriyyətində əhalinin istifadə etdiyi enerjinin ciddi bir hissəsi alternativ enerji mənbələrinin hesabına əldə olunur. Bəs ölkəmizdə niyə bu sahə inkişaf etmir? Niyə hər zaman, hər sahədə olduğu kimi Avropa ölkələrindən on il geridəyik? Alternativ enerjidən istifadə Azərbaycana nə verə bilər?**

"Yeni Müsavat"ın suallarını cavablandıran Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, Azərbaycanda bu sahənin inkişafı üçün Avropanın keçdiyi yol öyrənilməlidir: "Alternativ energetikanın inkişafı üçün Azərbaycanın yeni kəşflər etməsinə ehtiyac yoxdur. Bunun üçün Avropa təcrübəsinə nəzər salmaq kifayətdir. 2005-ci ildə Avropa Komissiyasının qəbul etdiyi qərarlar, qətnamələr, qanunlar, onların 11 ildə həyata keçirdiyi işlər, imza atdıqları uğurlar bizim üçün nümunə olmalıdır. 2005-ci ildə qərar verildi ki, 15 ilə alternativ enerjinin payını 20 faizə çatdırmaq lazımdır. Qarşılarına belə bir məqsəd qoymuşdular. Ümumi enerji balansının 20 faizinin alternativ enerjidən əldə olunması çoxlarına mif kimi görünürdü. Elə ölkələr oldu ki, cəmi 5 il sonra, yəni 2010-cu ildə həmin 20 faizlik baryeri aşa bildi. Bunun da ən böyük rolu o idi ki, bütün məsələlər kompleks şəkildə həll edilirdi. Kompleks şəkil nə deməkdir? Bir tərəfdən alternativ enerjiyə dəstək verirlər, digər tərəfdən, məişətdəki, sənayedəki, bütün sahələrdəki yeni texnologiyaları alternativ enerjinin tətbiqinə uyğun yaradırlar. Azərbaycanda hələ 2010-cu ildə təzə-təzə qənaətli ağ lampalar istifadəyə buraxılanda, deyirdilər ki, gözdə xərçəng xəstəliyi yaradır. Bu şayiəni də volframlı lampaları satan adamlar, bu biznesin sahibləri ortaya atırdı".

**Ekspertin sözlərinə görə, alternativ enerjinin tələblərinə uyğun texnologiyaların sənayedə və məişətdə tətbiqi tam fərqli sahələrdir:** "Əgər evdə hər hansı alternativ enerji qurğusundan istifadə etmək istəyirsinizsə, həmin evdəki bütün məişət avadanlıqları daha az enerji ilə çalışmalıdır. Əgər sizin neçə min kilovatlıq soyuducunuz varsa, ondan daha aşağı səviyyədə enerji sərf edən cihazlarla əvəz edilməlidir. Bunun üçün də hökumət müvafiq addımlar atmalı və qənaətcil məişət texnologiyalarının ölkəyə gətirilməsi istiqamətində işlər görməlidir. Hökumət köhnə avadanlıqlarınızı sizdən almalı və onu yenisi ilə əvəz etməlidir.

Ancaq bu, Azərbaycan hökumətinə xas olan addım deyil. Sadə bir misal çəkəcəyəm. Hökumət 10 milyardlarla neft gəlirlərinin axdığı zaman ölkəyə innovativ texnologiyaların gətirilməsinə vəsait qıymadı. 2016-cı il başa çatır, hələ bu ölkədə televiziya yayımı rəqəmsal texnologiyaya keçməyib, bir kanal normal yayım edə bilmir. Ölkə o vəziyyətdədir ki, nə AzTV, nə İctimai TV HD yayımda yayımlanmır. Burada hökumət, sadəcə, rəqəmsal televiziyaların ölkəyə gətirilməsi üçün gömrükdə dövlət rüsumunu 40-50 manat aşağı salmalı idi. Halbuki bizdə satılan televizor Moskvada 2 dəfə ucuzdur. Bu, hökumətin yeni texnologiyaya münasibətini əks etdirir".

**İ.Şabanın fikrincə, alternativ enerji sahəsi də məhz bu səbəbdən inkişaf edə bilmədi:** "İndi alternativ energetika üzrə 2009 - cu ilin avqustunda dövlət qurumu yaradılıb və açıqlama verirlər ki, bu sahəyə 900 milyon sərmayə qoyulub. Bir nəfər də ortaya çıxıb hesablamır ki, bu vəsait hara gedib. Bu vəsaitlə bilirsinizmi nə qədər iş görmək olardı. 200 meqavatlıq bir elektrik stansiyası tikib istifadəyə vermək üçün təqribən 240 milyon manat civarında vəsait lazımdır. Bununla 5 ədəd elektrik stansiyası tikmək olardı. Bəs biz alternativ energetikaya bu qədər vəsait xərcləyib nə əldə etmişik? 9 ayın nəticələrinə görə, alternativ enerjidən cəmi 51 milyon kilovat saat elektrik enerjisi alınmışıq. Bu, Dövlət Statistika Komitəsinin rəsmi məlumatıdır. Bəs biz nə vaxt alternativ energetikadan normal istifadə edəcəyik. Bu üsulla davam etsə, faktiki, heç vaxt".

**İlham Şaban qarşıdakı 5 ildə Azərbaycanın alternativ enerji mənbələrinə ciddi ehtiyac duyacağını, lakin bu işlərə artıq indidən başlamaq lazım gəldiyini vurğuladı:** "Onu da nəzərə almaq lazımdır ki, ölkədə qaza tələbat artır. Artıq elektrik enerjisinin istehsalında mazutdan da istifadə etməyə başlamışıq. Yarım milyon ton mazut elektrik istehsalı üçün istifadə edilir. Çünki qazla bağlı defisit yaranıb və həmin defisitin bir hissəsini mazutla əvəz edirik. Azərbaycan bir də qardaş Türkiyəyə baxsın və görsün ki, Şərqi Anadoludan İstanbula kimi bütün insanlar özlərinin isti suya olan tələbatını, həm məişətdə, həm sənayedə, həm turistik obyektlərdə alternativ enerji mənbələri hesabına ödəyirlər. Onlar hətta buludlu havada belə 50 dərəcəyədək isti su əldə edə bilən avadanlıqlardan istifadə edirlər. Onun qiyməti də baha deyil, 500 dollardır. Azərbaycanda bu sistem bir neçə oteldə və istirahət mərkəzində var. Ancaq insanlarda yoxdur. Hökumət niyə buna cəhd eləmir? Azərbaycanda iki milyona yaxın qaz istifadəçisi var. Regionlarda, paytaxtda isti su üçün qazdan istifadə olunur. Bu cür alternativ enerji istehsal edən avadanlıqlar ölkəyə nə qədər xeyir verərdi? Hökumət bu addımı niyə atmır? Bu işləri niyə iş adamlarına həvalə etmir? Deməli, burada maraqlı qüvvələr var ki, qazın itkisində, qazla elektrik enerjisinin yüz milyonlarla manata yaxın qarşılıqlı borclarında, sonra bunu silmək adı ilə bir neçə dövlət qurumlarının iştirakında öz maraqları var. Adi bir biznesmenin nə isə etməsi mümkünsüzdür. Əgər hökumət uzaqgörənlik edib 5 il qabağı görmürsə, bu sahə inkişaf edə bilməz. Hökumət nəzərə almalıdır ki, əhalisinin sayı artır, sənaye müəssisələrinin sayı artır, hamısı da qazla işləyir. Bunun sonu necə olacaq? Bunun ən gözəl çıxış yolu itkilərin azaldılması, ikinci yolu isə insanları alternativ enerjidən istifadəyə təşviq etməkdir. Əgər bu işlər görülməzsə, çox ciddi problemlər yarana bilər.

Xaricdə alternativ enerji ümumi istehlakın böyük bir hissəsini əhatə edir. Artıq Almaniyanın elə şəhərləri var ki, 2016-cı ildə yüz faiz alternativ enerji mənbələri ilə işıqlandırılıblar. Kanadada, Danimarkada da elektrik enerjisindən çox istifadə olunur. Ən yüksək faiz dərəcəsi Danimarkadadır, təxminən 40 faiz civarında bu ölkə əhalisi alternativ enerjidən faydalanır".

❑ Nərgiz LİFTİYEVA

# Vətəndaşa məxsus torpaq başqasına satılıb

## Vahid Mühacirov: "Bütün sənədlər əlimdə olsa da, torpağıma sahiblənə bilmirəm"

**Bakı sakini Vahid Mühacirov Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşlarından və eləcə də şikayətinə baxmayan digər dövlət qurumlarından şikayətçidir. Şikayətçinin sözlərinə görə, onun sahibi olduğu sənədli torpaq sahəsinin bir sotunu qonşusu mənimsəyərək başqa şəxsə satıb. Hazırda isə həmin torpaq sahəsində tikinti işləri aparılır.**

Şikayətçi V. Məhərrəmov müvafiq instansiyalardan yardım ala bilməyincə, məsələni ictimailəşdirmək üçün "Yeni Müsavat"ın redaksiyasına müraciət edib. Şikayətçi başına gələnləri belə anladıb: "Yeni Suraxanı qəsəbəsi, 14 iyul küçəsi, döngə 6 ünvanında oğlum Vüqar Mühacirovun adına 5 sot torpağımız var. Qonşu Elxan Məmmədov 2013-cü il sentyabrın 9-da aramızda olan çəpəri uçurmuşdu. Həmin zaman biz bununla bağlı məhkəməyə müraciət etdik. Məhkəmə qərar çıxardı ki, dəymiş zərər ödənilsin və aramızda barışıq oldu. Bu hadisədən sonra biz ora bir müddət getmədik. Çünki hesab edirdik ki, problem həll olundu. Lakin sonra xəbər tutduq ki, qonşu fürsətdən istifadə edib, öz həyətini, üstəgəl də bizim 1 sot torpağımızı satıb. Məsələ ilə bağlı müvafiq instansiyalara müraciət etsək də, problem həll olunmamış qalır. Elxan Məmmədov digər qonşunun da eyni üsulla torpağını zəbt edib. Həmin qonşunun şikayəti əsasında Elxan Məmmədov həbs olunub. Hazırda da həbsdədir. Onun torpağımızı satdığı şəxs isə bildirir ki, mən buranın pulunu verib almışam və qaytarası da deyiləm. Ancaq onu da qeyd edim ki, həmin ərazi sənədlərlə bizə məxsusdur. Onların sahəsinin heç qanuni sənədləri də mövcud deyil. Torpağı alan şəxs artıq orada ev də tikir. Bununla bağlı təxminən bir ay öncə Suraxanı Rayon İcra Hakimiyyətinə müraciət etmişəm. İcra hakimiyyətindən bildirdilər ki, get, sabah gəlib həmin tikilini söküb, torpağını qaytaracağıq. Lakin heç bir nümayəndə gəlmədi. Problemlə bağlı məhkəməyə də müraciət etmişəm. Məhkəmə prosesi də yubadılır. Faktiki olaraq bütün sənədləri əlimdə olsa da, torpağıma sahiblənə bilmirəm".

Məsələ ilə bağlı Suraxanı Rayon İcra Hakimiyyəti ilə əlaqə yaratmağa səy göstərsək də, zəngimizə cavab verilmədi.




ETİBARNAMƏ
Bakı şəhəri — On altı noyabr iki min on üçüncü il
Mən, Bakı şəh., Y/Suraxanı qəs,14 İYUL küç.dön 7, ev 4-də qeydiyyatda olan
Mühacirov Vüqar Vahid oğlu
(şəx. vəs. AZE № 07488084 ver. Suraxanı RPİ tar. 12.12.2009-cu il tar.)
həmin etibarnamə ilə
Həmin ünvanda qeydiyyatda olan
Mühacirov Vahid Mustafa oğlu
(şəx. vəs. AZE № 09451094 ver. Suraxanı RPİ tar.29.10.2011-ci il tar.)
[illegible]
Həmin etibarnamə üzrə səlahiyyət başqa şəxslərə verilə BİLƏR.
Etibarnamə 5 (beş) il müddətinə verilib və on altı noyabr iki min on səkkizinci ilədək qüvvədədir.
İMZA:
ƏN-I № 367141

❑ Əli RAİS

YENİ MÜSAVAT

# Son səhifə

N 236 (6557) 25 oktyabr 2016



## "Titanik"in anbar açarı 104 min dollara satıldı

"Titanik" gəmisinin anbar açarı 104 min dollara satılıb. Lenta.ru saytının xəbərinə görə, 1912-ci ildə batmış bu gəminin anbar açarı Henry Aldridge & Son auksionunda satışa çıxarılıb. Həmin anbarda isə xilasedici gödəkçələr yerləşdirilibmiş. Açar gəminin kapitanlardan birinin cəsədinin yanında tapılıb və onun həyat yoldaşına verilib. Açar ailədə 100 ilə yaxın qalıb. Bundan başqa, auksionda baş teleqrafçının yolladığı açıqca da satışa çıxarılıb. Ona da 23 min dollar verilib.

## İnsan cəmi 5 il yaşayır

Bir insan orta hesabla 70 il yaşayır. Bunun yarısını gecə yaşayır və bu müddətdə də adətən yatır. Qalır 35 il. Bu 35 ilin 5 ili uşaqlıqda keçir və anlaşılmır. 5 ili də yaşlı vaxtlara təsadüf edir ki, həyatın bu dönəmi də o qədər maraqlı sayılmaz. Qalır 25 il. Bu 25 ilin 15 ili çalışaraq, zəhmət çəkərək keçir. Qalan 10 ildən 5-i ayaqyolu, hamam kimi ehtiyaclara sərf olunur. Sonuncu 5 il qalıq isə... Şükür Allaha ki, yaşamağa sərf olunur. Su kimi axıb gedən zaman içində cəmi 5 il nə işə yarayır, kimə sərf olunur, bax bu da özü boyda müəmmadır.

# Rəqs insanı ən çox xoşbəxt edən məşğuliyyətdir

İngiltərədə aparılan bir araşdırmada xoşbəxtliyin maddi dəyəri ölçülüb. London İqtisad Məktəbinin tədqiqatçıları insanları daha çox hansı növ fəaliyyətin xoşbəxt etdiyini araşdırıblar. Hesablamalara görə, sənət və mədəniyyətlə bağlı fəaliyyətlərlə yanaşı idman da insanlara illik gəlirlərində 5 min sterlinq (təxminən 5600 manat) qədər artım olması dəyərində xoşbəxtlik verir. 40 min ingilis ailəsində aparılan araşdırma "The Daily Telegraph" qəzetində dərc olunub. Yaş, səhhət və təhsil səviyyəsi kimi xoşbəxtliyə təsirli olan faktorlar xaric hansı fəaliyyət növünün insanları daha çox xoşbəxt etdiyi araşdırılıb. Araşdırmaya görə, insanı yaxşı hiss etdirən fəaliyyətlərin başında rəqs etmək dayanır. Bu xoşbəxtliyin pulla ekvivalenti təxminən 2200 manatdır. Siyahıda rəqsdən sonrakı yerdə üzmək dayanır. Həftənin bir günü üzmək sizə maaşınızda 830 manat artım olmuş kimi hiss yaşadır. Üzmək - futbol və velosiped sürməkdən iki qat daha çox insanı xoşbəxt edir.



# 500 kiloluq misirli qadının yaxınları kömək istəyir

Misirin Aleksandriya şəhərindəki bir ailə ictimaiyyətə və həkimlərə müraciət edib. Onlar müraciətlərində həddən artıq olan çəkisinə görə evdən çıxmayan qohumları İman Əhməd Abdulati üçün kömək istəyiblər. 36 yaşlı qadın 500 kilo ağırlığındadır. Əgər onu təcili əməliyyat etməsələr, ölə bilər. Xəbərdə həmçinin qeyd olunub ki, İman artıq 25 ildir ki, evdən bayıra çıxmır. O, heç vaxt təhsil müəssisələrinə getməyib, təhsil almayıb. Anası və bacısı ona qulluq etməyə çalışırlar. Uşaqlığında onda "fil xəstəliyi" olduğu deyilmişdi. Anası və bacısı Abdulatinin dediyinə görə, yeniyetməliyində onun durumuna təsir edən məqamlardan biri də atasının ölümü ilə bağlı yaşadığı stress olub. Onlar uzun müddət bu xəstəliyi nəzarət altında saxlamağa çalışıblar. Amma indi media vasitəsilə həkimlərə və ictimaiyyətə yardım üçün müraciət ediblər.

Ümumiyyətlə, bəşəriyyətin ən kök qadını ünvanı rəsmi olaraq ABŞ vətəndaşı Kerol Yaqerə məxsusdur. O, 1994-cü ildə 34 yaşında dünyasını dəyişib. Hazırda isə 36 yaşlı amerikalı Mayra Rozales 470 kiloluq çəkisi ilə dünyanın rəsmi olaraq ən kök qadınıdır. Amma misirli qızın 500 kilo olması göstərir ki, o, hazırda qeyri-rəsmi olaraq dünyanın ən kök qadınıdır.





## Çoxarvadlı kişi hər ay alman hökumətindən 30 min avro alır

Öz ölkəsini 2015-ci ildə tərk edən hazırda dörd arvadı və 23 uşağı ilə Almaniyada yaşayan Suriya qaçqını Qazi adlı şəxs hər ay 30 min avro müavinət alır.

Musavat.com xarici KİV-lərə istinadən xəbər verir ki, Qazinin yeganə çətinliyi onun daima müxtəlif şəhərlərə getməsidir. Məsələ ondadır ki, onun arvadları müxtəlif şəhərlərdə yaşayır.

Qazi vaxtının çoxunu Montabaur şəhərində keçirir. Belə ki, bu şəhərdə onun əsas arvadı və uşaqları yaşayır.





**QOÇ** - İlahi prinsiplərə xüsusi əhəmiyyət verin. Günahlarınızın yuyulması üçün dualar edin. Sevdiyiniz adamda özünüzə qarşı yalnız rəğbət yaratmağa çalışın. Uzaq səfərləri təxirə salın.

**BUĞA** - Ümumi passivliyinizi nəzərə alıb fəaliyyətə ara verin. Əsas enerjinizi bütünlüklə istirahətə və səyahətlərə həsr edin. Günün ikinci yarısında istənilən mübahisə və riskdən yayının.

**ƏKİZLƏR** - Hər mənada uğurlu bir təqvim yaşayacaqsınız. Sevdiyiniz adamlarla ümumi dil tapmağınız əsas işlərinizin gedişində müsbət çalarlar əmələ gətirəcək. Gecəni öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Saat 14-ə qədər münaqişəli məsələlərdən uzaq olmağa çalışın. Kiminsə özü yaratdığı problemi düzəltmək fikrinə düşməyin. Sonrakı saatları isə bütünlüklə əyləncələrə həsr edin.

**ŞİR** - Uğurlu gündür. Günün birinci yarısında qazanmaq, nahardan sonra isə xoş təsadüflərlə rastlaşmaq şansınız var. Yeni əlaqələrə ciddi və perspektivli yanaşın. Bu, yalnız xeyrinizə ola bilər.

**QIZ** - Yersiz qürrələnməyiniz, özünüzü tərifləməyiniz ünsiyyətdə olduğunuz adamlarda sizə qarşı ikrah yarada bilər. Səmimi və sadə olun. Axşama yaxın təzə xəbər eşidəcəksiniz.

**TƏRƏZİ** - Cərəyan edən proseslərə çılğın tərzdə yanaşmağınız heç bir irəliləyişə təkan verməyəcək. Odur ki, müdriklik göstərməyiniz tələb olunur. Yeni əməkdaşlığa ciddi tərzdə yanaşın.

**ƏQRƏB** - Bürcünüz başlayandan sanki qayğılarınız da artıb. Qarşınızda duran vəzifələrin öhdəsindən çətinliklə gəlməyiniz sizi səbrsiz edir. Bir az dözümlü olun. Ulduzlar varlanacağınızı bildirir.

**OXATAN** - Passiv bir gün yaşamalı olacaqsınız. Özündən müştəbehlik, hamıya yuxarıdan aşağı baxmaq kimi mənfi xüsusiyyətlərdən uzaq olun. Yeni işgüzar təklifləri rədd etməyin.

**OĞLAQ** - Maddi problemləri nəzərə almasaq, bu təqvimdən narazı qalmağınıza elə bir ciddi əsas yoxdur. Ulduzlar insanlara baxışlarınızı kökündən dəyişməyi tövsiyə edir. Əsəblərinizi qoruyun.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində bəzi xoşagəlməzliklə rastlaşa bilərsiniz. Boş yerə hay-küy qaldırmayın. Hər şeydən əvvəl ətrafınızda müsbət aura, xoş mühit yaradın ki, qurtulasınız.

**BALIQLAR** - Hər hansı işdə təkbaşına addım atmaqdan vaz keçin. Əməkdaşlıq zəminində isə uğurlara yetişəcəksiniz. Saat 16-dan sonra perspektivi sual altında olan danışıqlardan imtina edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Depressiya insan ömrünü 6 il qısaldır



Niderland alimləri apardıqları tədqiqat nəticəsində bu qənaətə gəliblər. 2400 nəfər üzərində aparılan araşdırma nəticəsində depressiyanın insanın səhhətinə mənfi nəticələri üzə çıxıb. Tez-tez depressiyaya düşən insanın ömrü digərlərinə nisbətən daha qısa olur. Bu, onların sinir sisteminə, bir çox hallarda isə həyati əhəmiyyətli orqanlarının fəaliyyətinə təsir göstərir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750